AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

23 sentyabr 2016-cı il   № 61-64 (9067)   Qiyməti 50 qəpik

## BU SAYIMIZDA


### AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TUTARLI CAVABI SARKİSYANA TƏRS SİLLƏ EFFEKTİ VERDİ

*Öz ənənəsinə sadiq qalan Ermənistan prezidenti Serj Sarkisyan bütün tədbirlərdə olduğu kimi, MDB Dövlət Başçıları Şurasının sentyabrın 16-da Bişkekdə keçirilən iclasında da Azərbaycanla bağlı etdiyi qərəzli, təxribat xarakterli çıxışla əslində heç kəsi təəccübləndirmədi.*

Səh. 2

### DƏNİZ AKADEMİYASINDA “AÇIQ QAPI GÜNÜ”

*Sentyabrın 9-da Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Dəniz Akademiyasında “Açıq qapı günü” - yenicə tələbə adını qazanan gənclər və onların valideynləri ilə görüş keçirilib. Görüşdə Gəmiçiliyin rəhbər işçiləri, donanma rəisləri, gəmi təmiri zavodlarının direktorları, Bakı Gəmiqayırma Zavodunun və Gəmiçiliyin alyans tərəfdaşı olan “Caspian Marine Services Ltd” şirkətinin nümayəndələri iştirak ediblər.*

Səh. 3

### “VİKİNQ TRAİN” LAYİHƏSİNİN GƏLƏCƏK PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

***Bakıda “Vikinq train” layihəsinin gələcək perspektivləri müzakirə olunub.***

“Azərbaycan Dəmir Yolları” QSC-nin mətbuat katibliyindən bildirilib ki, müzakirələr sentyabrın 15-də “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətində Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas ilə keçirilən görüşdə aparılıb.

Səh. 5

### Xəzər qazının Mərkəzi Avropaya nəql edilməsi üçün qaz kəməri tikintisi barədə saziş imzalanıb

***Budapeştdə Avstriya, Bolqarıstan, Macarıstan, Rumıniya və Avropa İttifaqı arasında qaz kəmərinin Rumıniya hissəsinin tikintisi barədə saziş imzalanıb.***

Bu barədə “Euronews” agentliyinin “Mərkəzi və Cənubi Avropada beynəlxalq qaz kəməri real cizgilər kəsb edir” adlı materialında məlumat verilir.

Səh. 6

### İŞ ADAMI CƏBƏLLÜTARİQ BOĞAZINI ÜZƏRƏK KEÇİB

***“Sigma Technologies” şirkətinin sahibi olan 51 yaşlı Dino Sebti Cəbəllütariq boğazını üzərək keçən ilk mərakeşli kimi tarixə düşüb.***

Səh. 7

### NÖVBƏTİ OLİMPİADANIN TƏŞKİLATÇILARI BU SƏVİYYƏYƏ NAİL OLMAQ ÜÇÜN ÇOX ÇALIŞMALIDILAR

***Bakının ev sahibliyi etdiyi, sentyabrın 2-dən start götürən, sentyabrın 13-də Milli Gimnastika Arenasında təntənəli bağlanış mərasimi keçirilən 42-ci Ümumdünya Şahmat Olimpiadasında 175 ölkədən 181 kişi və 142 qadın komandası mübarizə aparırdı. Bu, iştirakçı ölkələrin sayına görə Olimpiada tarixində rekord göstəricidir. Azərbaycan bu mötəbər yarışda üç kişi və üç qadın komandası ilə təmsil olunurdu.***

On bir turdan ibarət yarışlarda kişilərin mübarizəsində aktivində 20 xal olan ABŞ millisi çempion adını qazandı.

Səh. 8


## 26 sentyabr ümumxalq səsverməsi (referendum) günüdür

# AZƏRBAYCANIN İNKİŞAFININ SÜRƏTLƏNMƏSİNƏ VƏ MÜSTƏQİLLİYİMİZİN ƏBƏDİLİYİNƏ MÜHÜM TÖHFƏ OLACAQ KONSTİTUSİYA İSLAHATLARINA SƏS VERƏK!




***Azərbaycan Respublikası öz müstəqilliyinə qovuşduqdan sonra ölkənin gələcək inkişafını şərtləndirəcək idarəetmə sisteminin qurulması istiqamətində davamlı addımlar atılmağa başlanmışdır. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra səmərəli idarəetmənin konseptual əsaslarının yaradılması, normativ-hüquqi bazanın zənginləşdirilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilmişdir.***



Müasir mərhələdə də dövlət idarəetməsinin təkmilləşdirilməsi istiqamətində inzibati islahatların həyata keçirilməsi müntəzəm xarakter almışdır. Dövlət idarəetməsinin təkmilləşdirilməsi, hər şeydən öncə, dövlət-vətəndaş münasibətlərinin tənzimlənməsi baxımından olduqca vacibdir. Deməli, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, bütövlükdə, cəmiyyətin dinamik inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Son onilliklərdə Azərbaycanda iqtisadi, siyasi, sosial, hüquqi sahələrdə köklü dəyişikliklər aparılmış, hakimiyyət sistemində, mülkiyyət münasibətlərində yenidənqurma prosesi getmiş, müasir dövlət qulluğu institutu formalaşmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət idarəetməsinin cəmiyyət üzvlərinin maraqları çərçivəsində həyata keçirilməsinin təmin olunması istiqamətində prinsipial addımların atılmasını xüsusi nəzarətdə saxlayır. Respublikada həyata keçirilən inzibati islahatların başlıca hədəfi idarəetmənin cəmiyyətin gözləntilərinə cavab verməsini təmin etməkdən ibarətdir.

"Bizim bütün işimizin mərkəzində , təməlində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan vətəndaşının rahat, rifah içində yaşaması bizim başlıca borcumuzdur" fikirlərinin müəllifi olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniyanın "The Business Year" jurnalına müsahibəsində deyib: "Bizim həyata keçirdiyimiz siyasətin əsasında insan amili, vətəndaşlarımızın rifahı məsələsi dayanır. Bütün addımlarımız, gördüyümüz işlər Azərbaycan xalqının maraqlarına xidmət edir. Təbii ki, xalqımızın etimadı, dəstəyi olmasaydı, biz bu nəhəng planları həyata keçirə bilməzdik."

"Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ümumxalq müzakirəsinə (referenduma) çıxarılaraq kütləvi informasiya vasitələrində dərc edilib. Ümumxalq səsverməsi (referendum) 2016-cı il sentyabrın 26-na təyin edilib.

Referendum aktı layihəsində Azərbaycan Konstitusiyasının 23 maddəsində dəyişiklik edilməsi və 6 maddənin əlavə olunması nəzərdə tutulur. Əlavə və dəyişikliklər insan hüquq və azadlıqlarının qorunmasına təminat verən əsasların təkmilləşdirilməsini; səmərəli və çevik dövlət idarəçiliyi mexanizminin formalaşdırılmasını, icra hakimiyyəti şaqulisinin və icra intizamının möhkəmləndirilməsini; həyata keçirilən iqtisadi islahatların effektivliyini və ardıcıllığını təmin etmək üçün iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsini; qanunvericilik hakimiyyətinin fəaliyyəti ilə bağlı yeni tələblərin müəyyən edilməsini; dövlətin təhlükəsizliyinə, cəmiyyətdə sabitliyə əlavə təminatın yaradılmasını nəzərdə tutur. Ümumiyyətlə, dəyişikliklər ölkədə baş vermiş əsaslı yeniliklərdən irəli gəlir və müasir dövrdə cəmiyyət həyatının əsas sahələrini əhatə edir.

Dəyişikliklərə nəzər yetirsək, yeni referendum aktına əsasən, dövlət başçısı Milli Məclisi buraxmaq səlahiyyətinə də malik olacaq, prezident seçilməklə bağlı 35, deputat seçilməklə bağlı 25 yaş məhdudiyyəti aradan qaldırılacaq, prezidentlik müddəti 5 ildən 7 ilə qaldırılacaq, birinci vitse-prezident və vitse-prezidentlər təyin olunacaq... Konstitusiyaya təklif edilən bu və ya digər dəyişikliklər Azərbaycanın inkişafı baxımından mühüm islahatlar kimi dəyərləndirilməlidir.

Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" ilə bağlı fəslinin 15 maddəsinə əlavə və dəyişiklik nəzərdə tutulmuşdur ki, bu da ümumi dəyişikliklərin 60 faizdən çoxunu təşkil edir. Layihəyə əsasən, insan ləyaqətinin qorunması, hüquq və azadlıqlara həm məhkəmə təminatı verilməsi, həm də onun inzibati qaydada müdafiə olunması, vətəndaşların əmək hüququnun daha etibarlı təminatı məqsədilə lokautun qadağan edilməsi, mülkiyyət konsepsiyasına Qərb hüquq sisteminə uyğun mütərəqqi sosial məsuliyyət anlayışının daxil edilməsi, dövlət orqanlarının vətəndaşa münasibətdə məsuliyyətinin yüksəldilməsi, mümkün özbaşınalıq hallarının qarşısını alacaq tələblərin sərtləşdirilməsi, eyni tələblərin həm də bələdiyyələr və bələdiyyə qulluqçuları üçün müəyyənləşdirilməsi, fərdi məlumatların qorunmasına etibarlı təminat yaradılması, insan hüquq və azadlıqlarının qanunla məhdudlaşdırılmasının dövlət tərəfindən gözlənilən nəticəyə mütənasibliyinin təsbit olunması və s. insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi yönündə olduqca mütərəqqi təkliflərdir.

Bundan başqa, dəyişikliklərə və əlavələrə əsasən, sahibkarlıq sahəsində dövlətin tənzimləyici funksiyasının sərhədləri dəqiq müəyyən edilir, sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi liberallaşdırılır. Sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyat və sağlamlığının müdafiəsi ilə bağlı tənzimlənmənin konkret məqsədi aydınlaşır və buna xidmət etməyən qaydalar lazımsız hesab edilir. Eyni zamanda, xüsusi mülkiyyətin sosial funksiyaları vurğulanır, onun cəmiyyətə ziyan vurmaq imkanları məhdudlaşdırılır. Təklif edilən dəyişikliklər vətəndaşların, o cümlədən sahibkarların dövlət məmurlarının özbaşınalıq və qanuna zidd davranışlarından qorunmasına əlavə təminat yaradır. Dəyişikliklər qəbul edildikdən sonra bu maddəyə əlavələr digər qanunlarda öz əksini tapacaq. Bələdiyyələrin və onların vəzifəli şəxslərinin vətəndaşlar qarşısında məsuliyyəti də artırılacaqdır.

Ümumiyyətlə, qarşıdakı referendumu Azərbaycanda dövlətçiliyin güclənməsinə, cəmiyyətin və xalqın yüksək inkişafının təmin edilməsinə yönəlmiş növbəti təşəbbüs kimi bu layihə xüsusi əhəmiyyətə malikdir. Düşünürəm ki, istər parlament seçkiləri, istərsə də prezident seçkiləri ilə əlaqədar yaş həddinin götürülməsi demokratik prinsiplərin gücləndirilməsi deməkdir.

Konstitusiya ilə bağlı təklif edilən bu dəyişikliklər dövrümüzün tələblərinə uyğundur. Bu dəyişikliklər konstitusiyamızın və idarəçilik sisteminin təkmilləşməsinə xidmət edir.

Azərbaycan Respublikasında islahatların başlıca istiqamətini cəmiyyət üzvlərinin maraqlarına cavab verən, onların istək və tələblərini dəqiqliklə nəzərə ala bilən dövlət idarəetmə sisteminin yaradılması təşkil edir. Vətəndaşlara göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi də demokratik islahatların vacib istiqamətlərindən birini təşkil edir.

**26 sentyabr ümumxalq səsverməsi (referendum) günüdür. Gəlin bir nəfər kimi, Azərbaycanın inkişafının sürətlənməsinə və müstəqilliyimizin əbədiliyinə mühüm töhfə olacaq Konstitusiya islahatlarına səs verək!**

*M. HƏSƏNOV,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Fransa şirkəti Azərbaycanda referendum öncəsi mühitin qiymətləndirilməsi məqsədilə sorğu keçirib

***Respondentlərin 87 faizi Konstitusiyaya əlavə və dəyişikliklərin zəruri olduğunu qeyd edib***




Fransanın “Opinon Way” Tədqiqatlar İnstitutu Azərbaycanda referendum öncəsi mühitin qiymətləndirilməsi məqsədilə ölkə əhalisi arasında rəy sorğusu keçirib.

Sorğu müddətində Azərbaycanın bütün ərazisini əhatə etməklə kvotalı təsadüfi seçmə metodologiyası əsasında müəyyənləşdirilmiş 1200 respondentlə üz-üzə müsahibə aparılıb.

Tədqiqat məqsədləri üçün 3 blokda qruplaşdırılmış 12 sualdan ibarət sorğu anketindən istifadə edilib ki, bu suallar respondentin sosial-demoqrafiq göstəriciləri, ölkədə mövcud siyasi-iqtisadi vəziyyət haqqında baxışları və qarşıdan gələn referenduma çıxarılacaq məsələlərə münasibətini öyrənməyə istiqamətlənib.

Tədqiqat müddətində rəyi soruşulanların 81 faizi Azərbaycan Respublikasında siyasi sistemin fəaliyyətindən razı olduğunu bildirib. Respondentlərin 93 faizi hazırda Azərbaycanda həyata keçirilən işlərin düzgün istiqamətdə aparıldığı qənaətindədir.

Sorğuda iştirak edənlərin 96 faizi Prezident kimi İlham Əliyevin öz vəzifəsini uğurla icra etdiyini göstərib.

Respublikamızda bir sıra problemlərin mövcud olduğu fikrində olan respondentlər ən vacib problemlər kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini (77 faiz) və iqtisadi durumla bağlı çətinliyi (41 faiz) qeyd ediblər.

Rəyi öyrənilən respondentlərin 82 faiz sentyabrın 26-da keçiriləcək referendumda iştirak edəcəyini göstərib. Yalnız bütün respondentlərin 5 faizi hələ də səsvermə prosesinə qatılmaq barədə yekun qərar vermədiyini bildirib.

Bütün respondentlərin 87 faizi Konstitusiyaya təklif edilən əlavə və dəyişikliklərin ümumilikdə zəruri olduğunu qeyd edib. Konstitusiyaya təklif edilən bu və ya digər əlavə və dəyişikliklər nəticəsində müvafiq sahələrin inkişafına təsirinə gəlincə, respondentlərin 88 faizi bu təsirin müsbət olacağı qənaətindədir. Xüsusən də rəyi öyrənilənlər təhlükəsizliyin və müdafiənin təmin edilməsi və insan hüquqları və azadlıqlarının konstitusion təminatları ilə bağlı təkliflərin bu sahələrdə gələcək inkişafa stimul verəcəyini düşünürlər.

# 26 sentyabr qeyri-iş günüdür

***Konstitusiyada dəyişikliklər edilməsi məqsədi ilə sentyabrın 26-na ümumxalq səsverməsi (referendum) təyin edilib.***

Sentyabrın 26-sı bazar ertəsinə təsadüf edir. Seçki Məcəlləsinin 8.2-ci maddəsinə əsasən, səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab olunmur.

Buna görə də 26 sentyabr ölkədə qeyri-iş günüdür.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TUTARLI CAVABI SARKİSYANA TƏRS SİLLƏ EFFEKTİ VERDİ






***Öz ənənəsinə sadiq qalan Ermənistan prezidenti Serj Sarkisyan bütün tədbirlərdə olduğu kimi, MDB Dövlət Başçıları Şurasının sentyabrın 16-da Bişkekdə keçirilən iclasında da Azərbaycanla bağlı etdiyi qərəzli, təxribat xarakterli çıxışla əslində heç kəsi təəccübləndirmədi. Ermənistan prezidentinin boşboğazlığı, Azərbaycan haqqında heç bir məntiqə sığmayan, yalan, böhtan xarakterli çıxışlar etməsi və özünü biabırçı vəziyyətə salması, belə görünür, artıq onda vərdişə çevrilib. Serj Sarkisyan Bişkekdəki çıxışı ilə erməni tərəfinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında nəinki sülh istəmədiyini, hətta növbəti təxribatlar üçün əsas yaratmağa çalışdığını nümayiş etdirdi.***

MDB Dövlət Başçıları Şurasının iclasında bu il aprelin əvvəlində Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş vermiş hadisələrlə bağlı ölkəmizdən şikayət xarakterli yersiz çıxışı ilə Sarkisyan növbəti dəfə özünü biabır etdi.

Aprel döyüşlərinin Ermənistan tərəfinin Azərbaycanın işğal olunmuş ərazilərində ölkəmizə qarşı silahlı təxribatı nəticəsində baş verdiyini sanki "unudan" Sarkisyan həyasızcasına dedi ki, bu hadisələr hərbi itkilərə gətirib çıxarmaqla yanaşı, mülki vətəndaşların da həlak olması ilə nəticələnib və sülh prosesinə ciddi zərbə vurub.

Qeyd etdiyimiz kimi, Sarkisyan həm Ermənistandakı tədbirlərdə, həm də iştirak etdiyi beynəlxalq sammitlərdə, konfranslarda Azərbaycan haqqında cəfəngiyat dolu çıxışlar edir. Xüsusilə də erməni gənclərin, diaspor nümayəndələrinin qarşısında həmişə boşboğazlıq edən Ermənistan dövlətinin başçısı Bişkekdə bir məqamı nəzərə almamışdı: onun qarşısında nə beyni zəhərlənmiş erməni gəncləri, nə də xəyanətkar diaspor nümayəndələri var idi. Onun qarşısında həqiqəti çox gözəl bilən dövlət və hökumət başçıları, ən əsası isə Azərbaycan Prezidenti İlham Əliyev var idi. Yəqin o, çıxışların əlifba sırası ilə edildiyinə və Azərbaycan Prezidentinin artıq çıxışının başa çatmasına arxayın olub belə "cəsarətlənmişdi".

Azərbaycan Prezidentinin Ermənistan dövlətinin başçısına sillə kimi dəyən sərt cavabı isə özünü çox gözlətmədi. Prezident İlham Əliyev əlifba sırası ilə çıxış etməli olan Belarus Prezidenti Aleksandr Lukaşenkodan ona danışmaq üçün imkan verməsini xahiş etdi və Ermənistan prezidentini yerinə oturtdu. Erməni tərəfinin bu yersiz şikayətlərlə artıq bütün beynəlxalq təşkilatları bezdirdiyini vurğulayan dövlətimizin başçısı Sarkisyanın qərəzli çıxışına tam əsaslı cavab verərək dedi: "Təsəvvür edirsinizmi, vəziyyət kifayət qədər paradoksaldır: Ermənistan suveren dövlətin ərazisini işğal edir, onun ərazi bütövlüyünü pozur, Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan yerli azərbaycanlı əhalini qovur, bir milyon insanı qaçqın və məcburi köçkün vəziyyətinə salır, işğal edilmiş ərazilərdə hər şeyi, o cümlədən tarixi, dini, mədəni abidələrimizi, bütün infrastrukturu dağıdır, - bu, ATƏT-in iki missiyasının məruzələri ilə təsdiq edilib, - sonra isə 20 ildən artıq müddətdə danışıqlar prosesini imitasiya etməklə məşğul olur. Eyni zamanda, bu prosesin sonsuz olması üçün vaxtaşırı müxtəlif təxribatlara əl atır və onlardan biri məhz bu ilin aprelində oldu. Azərbaycanın dinc sakinlərinin beş yüzdən çox evi erməni ordusu tərəfindən artilleriya atəşinə məruz qaldı, yüzdən çox ev dağıdıldı, aralarında uşaqlar da olmaqla, təxminən on dinc vətəndaş qətlə yetirildi, həlak oldu".

MDB Dövlət Başçıları Şurası iclasının Qırğızıstanın paytaxtında keçirilməsi guya Sarkisyana Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı 1994-cü ildə imzalanmış Bişkek protokolunu yada salıb. Amma Sarkisyan çıxışına hazırlaşmamışdan əvvəl bu sənədə nəzər salsaydı, belə biabırçı vəziyyətə düşməzdi. Bu ilin aprelində atəşkəs rejiminin pozulduğunu deyən Sarkisyan sözünə "qüvvət" vermək üçün Bişkek sazişinin "müddətsiz" bağlandığını bildirdi. Amma protokolda açıq şəkildə yazılıb ki, "tez bir zamanda müvafiq razılaşmanın bağlanması yolu ilə icra hakimiyyəti rəhbərləri və nümayəndələrinin silahlı qarşıdurmanın dayandırılması və onun nəticələrinin aradan qaldırılması üzrə səylərini tam dəstəkləyirlər...". Görəsən, Sarkisyan "tez bir zamanda" və "müddətsiz" ifadələri arasında fərqi görürmü? İyirmi ildən artıq bir müddət Ermənistana təcavüzkar siyasətdən imtina etməyə niyə bəs etmir?..

Bişkek protokolu Sarkisyan üçün belə vacib sənəddirsə, niyə məhz aprel döyüşlərində Azərbaycan Ordusundan sarsıdıcı cavab zərbəsi aldıqdan sonra bunu xatırlamaq qərarına gəlib. Görünür, zərbənin təsiri hələ keçməyib və keçməyəcək də. Amma bu sənəd yalnız atəşkəsin təmin edilməsi deyil, həm də işğal olunmuş torpaqların geri qaytarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi, məcburi köçkünlərin doğma yurd-yuvalarına qaytarılması, tez bir zamanda dayanıqlı sülhün əldə edilməsini nəzərdə tutur. Sarkisyan deyəndə ki 1994-cü il razılaşması qeyd-şərtsiz yerinə yetirilməlidir, görəsən sənəddəki digər məqamların üstündən niyə sükutla keçir?

Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq tribunalarda dəfələrlə bildirdiyi həqiqətləri bir daha vurğulayaraq Sarkisyanın səfalət girdabına saldığı və səbri tükənmiş ermənilərin qəzəbini soyutmağa və havadarlarından imdad diləməyə ünvanlanmış bu mənasız çıxışını tutarlı dəlillərlə tamamilə alt-üst etdi: "Beynəlxalq təşkilatlar bu məsələnin necə tənzimlənməli olduğunu çox dəqiq anlayırlar. Ali beynəlxalq struktur var – BMT Təhlükəsizlik Şurası. Bu strukturdan yüksəyi yoxdur. Təhlükəsizlik Şurası 1990-cı illərin əvvəllərində dörd qətnamə qəbul edib. Həmin sənədlərdə erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. Bu qətnamələr yerinə yetirilmir. Ermənistan onlara məhəl qoymur və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərini süni şəkildə dəyişdirməklə, həmin ərazini qanunsuz məskunlaşdırmaqla yeni reallıqlar yaratmağa çalışır. Bu, tamamilə qanunsuzdur, cinayətdir və bu cinayət indiyə qədər davam edir".

Beləliklə, çıxışına yalanla başlayan Ermənistan prezidenti siyasi cəhətdən bəsirətsizliyini göstərməkdə davam etdi. Sarkisyan münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında siyasi yollarla həll edilməli olduğunu dedi. Yəni, həqiqətənmi ona aydın deyil ki, beynəlxalq norma və prinsiplər işğalçının tərəfində deyil və ola da bilməz? Dövlət və hökumət başçıları qarşısında səriştəsiz olduğunu açıq nümayiş etdirmək ona bu qədərmi lazım idi?

Prezident İlham Əliyev Sarkisyanın bu fikirlərinin məhz işğalçı Ermənistana aid olduğunu sərt şəkildə vurğulayaraq məsələnin həqiqi tərəflərini bir daha diqqətə çatdırdı: "Biz sülh prosesinə sadiqik. Biz konstruktiv işləyirik. Minsk qrupu mövcuddur. Amma erməni tərəfi bu formatdan yalnız danışıqlar prosesinin sonsuz olması üçün istifadə edir. Onlar sülh istəmirlər. Onlar bizim ərazilərimizi daim nəzarət altında saxlamaq və hər yerdə Azərbaycanı bunda ittiham etmək istəyirlər ki, guya biz nəyisə pozuruq. Biz zərər çəkmiş tərəfik. Biz heç kəsin ərazisini işğal etməmişik. Bizim ərazilərimiz, beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycan ərazilərinin 20 faizi işğal altındadır".

Beləliklə, Ermənistan prezidenti Azərbaycan Prezidentinin faktlara əsaslanan tutarlı cavabının qarşısında çıxılmaz vəziyyətə düşdü və təbii ki, susmaq məcburiyyətində qaldı. Bu sərt cavabın qarşısında nə isə danışmağın yersiz olduğunu anlayan Sarkisyan özünü gülünc vəziyyətə salsa da, yenə də ona xas olan həyasızlıqdan əl çəkməyərək "Yalana cavab verməyin sadəcə mənası yoxdur" deməklə Prezident İlham Əliyevin qarşısında məğlub, aciz vəziyyətə düşdüyünü açıq-aşkar nümayiş etdirdi. Onun Azərbaycanı günahlandırmaq üçün etdiyi cılız cəhd bu dəfə də uğursuzluqla nəticələndi.

Azərbaycan Prezidentinin "Mən yalana artıq cavab verdim" deməsi isə Ermənistan dövlətinin başçısına növbəti dəfə tərs sillə effekti verdi.

Xatırladaq ki, Ermənistan prezidentinin Azərbaycan dövlətinin qarşısında bu cür məğlub duruma düşməsi birinci dəfə deyil. 2014-cü il aprelin 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunmuş Sammitdə Türkiyənin bu Zirvə toplantısında təmsil olunmamasından sui-istifadə edən Ermənistan prezidenti çıxışını bütünlükdə qondarma "erməni soyqırımı" ilə bağlı mülahizələrə həsr etmiş və qardaş ölkəni əsassız olaraq ittiham etmişdi. Dövlətimizin başçısı "bu masa arxasında Türkiyə nümayəndələri yoxdur, ancaq mən buradayam" deməklə Ermənistan prezidentinə tutarlı cavab vermişdi.

Sərkisyanın sərsəmliyi onu öz ölkəsində də üzüqara edib. Belə ki, erməni ekspertlər Sərkisyanın Bişkekdə özünü biabır etdiyini və Azərbaycan dövlət başçısı tərəfindən miskin vəziyyətə salındığını bildirirlər. Ekspert Qraçya Qalustyan "ArmenianReport"a təqdim etdiyi yazıda bildirir ki, Sərkisyan Bişkekdə Azərbaycan Prezidenti tərəfindən alçaldılıb və bu vəziyyətə düşməkdənsə "dezertilik" etsəydi daha yaxşı olardı. Qalustyan yazır: "Beləliklə, Sərkisyan MDB dövlət başçılarının Bişkekdə keçirilən sammiti zamanı çıxış edib. O, çıxışında Azərbaycanın ünvanına tənqidlər səsləndirib. O, çıxışını və bu tənqidləri kağızdan, yavaş-yavaş, monoton, darıxdırıcı və bir neçə dəfə səhv edə-edə oxuyurdu. Ona görə də Sərkisyanın çıxışı zalda əyləşənlərdə əsnəmək yaratmışdı. Təkcə elə bu fakt Sərkisyan və Ermənistan üçün biabırçılıqdır. Bizim ölkəni savadsız, heç kim üçün maraqlı olmayan, çıxışı ilə publikaya təsir etməyi bacarmayan, natiqlik qabiliyyəti olmayan bir şəxs təmsil edir. Ona heç öz həmkarları belə, qətiyyən hörmət etmir və bunu heç gizlətmirlər də. Bu, ilk dəfə deyil və əvvəllər dəfələrlə təkrarlanıb, o cümlədən Rusiya prezidenti Putinin iştirakı ilə. Belarus dövlət başçısı Lukaşenko da açıq şəkildə Sərkisyana qarşı hörmətsizlik etdi. Məsələ ondadır ki, əlifba sırasına əsasən Lukaşenko çıxış etməli idi. Amma Əliyev çıxış üçün ona şərait yaradılmasını istədi və Lukaşenko bu imkanı yaratdı. O, istəsəydi bundan imtina edə də bilərdi. Amma nəyə, kimə görə - Sərkisyana görəmi? Lukaşenkonu hər şeyə görə tənqid etmək olar, bircə praqmatizmə görə yox. O, təbii ki, Əliyevə Sərkisyanı alçaltmaq imkanı yaratdı. Azərbaycan Prezidentinin çıxışının sərt tonu çox vacib idi. Azərbaycan Prezidenti dedi ki, Ermənistan öz şikayətləri ilə bütün beynəlxalq təşkilatları bezdirib. Bu, çoxlu KİV nümayəndəsi və əsasən də MDB dövlət başçılarının qarşısında səsləndi. Onlardan heç biri Əliyevə narazılıq bildirmədi - hətta Sərkisyanın öz çıxışında təşəkkür etdiyi Rusiya və Qazaxıstan prezidentləri də. Bəs, bizim prezident nə etdi? Sadəcə, "yalana cavab verməyin, sadəcə, mənası yoxdur" dedi. O dəqiqə də Azərbaycan dövlət başçısından cavab aldı: "Mən yalana artıq cavab verdim". Görəsən, biz alçalmağa nə vaxta qədər dözəcəyik? Görəsən, bizi belə tədbirlərdə lazım olanda qaçmağı belə, bacarmayan adamlar nə vaxta qədər təmsil edəcəklər?".



## "Transxəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizi" mövzusunda forum keçirilib

***Vyanada Azərbaycan Respublikasının Avstriyadakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə Avstriya İqtisadiyyat Palatası və Türkiyə, Gürcüstan, Qazaxıstan və Türkmənistanın Avstriyadakı səfirlikləri ilə birgə "Transxəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizi" mövzusunda forum keçirilib.***

Forumu giriş sözü ilə Avstriya İqtisadiyyat Palatasının vitse-prezidenti Rixard Şents açaraq, Şərq-Qərb nəqliyyat dəhlizinin əhəmiyyəti, onun Avropa və Asiya arasında ticarət və iqtisadi əməkdaşlığa verə biləcəyi töhfə barəsində danışıb.

Daha sonra ölkəmizin Avstriyadakı səfiri Qalib İsrafilov çıxış edib. O, belə bir aktual və vacib mövzu barədə forumun təşkilinə verdikləri dəstəyə görə Avstriya İqtisadiyyat Palatasına, həmçinin Türkiyə, Gürcüstan, Qazaxıstan və Türkmənistanın Avstriyadakı səfirliklərinə təşəkkürünü bildirib. Natiq Şərq-Qərb Ticarət və Tranzit Dəhlizinin təkcə nəqliyyat dəhlizi deyil - qeyd olunan dəhliz üzərində yaşayan xalqların mədəniyyətlərini birləşdirən bir vasitədir, deyə bildirib. Daha sonra qeyd olunan ölkələrin Avstriyada akkreditasiya olunmuş səfirləri çıxış ediblər.

Tədbirin rəsmi hissəsindən sonra Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan və Türkiyənin aidiyyəti dövlət qurumlarının, həmçinin nəqliyyat və logistika şirkətlərinin nümayəndələri qısa təqdimatlarla çıxış ediblər. Tədbir Avstriya və region ölkələrindən olan nəqliyyat şirkətləri arasında ikitərəfli görüşlərlə yekunlaşıb.

***Elgün Niftəliyev***

# NƏQLİYYAT DƏHLİZLƏRİNİN POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏ, HƏMÇİNİN GƏLƏCƏKDƏ BU SAHƏNİN QEYRİ-NEFT SEKTORUNDA XÜSUSİ ÇƏKİSİNİN ARTMASI İLƏ NƏTİCƏLƏNƏCƏK

***Şərqlə-Qərbin, Şimalla-Cənubun qovşağında yerləşən Azərbaycan, unikal coğrafi mövqeyə malik olan dünyanın nəqliyyat sektorunda baş verən proseslərdən kənarda qalmayıb. Əksər hallarda isə bu proseslərin təşəbbüskarı elə Azərbaycandır. Qloballaşan dünyada ölkəmizin bu sahədə rolu artaraq strateji əhəmiyyət kəsb edir. Azərbaycan dünyanın ən mühüm və böyük yol ayrıcı kimi qəbul olunur. Bu baxımdan da, "yol ayrıcı"nın yaratdığı imkanlardan səmərəli istifadəni təmin etməklə tranzit xidmətlərini postneft dövründə büdcənin əsas gəlir mənbələrindən birinə çevirmək qarşıda duran başlıca vəzifələrdən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi dəstəyi ilə dövlət maraqlarını təmin edəcək irimiqyaslı işlər görülür. Ölkəmizdə tranzit yükdaşımaları stimullaşdırılmasına dair, dövlət başçısının imzaladığı çoxsaylı sərəncam və fərmanlar, verdiyi qərarlar, yüksək səviyyədə apardığı danışıqlar bu sahənin inkişafını təmin edəcək.***

Azərbaycan hökumətinin, xüsusən "Azərbaycan Dəmir Yolları" QSC-nin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirakı, tranzit daşımalarının artırılması və müvafiq infrastrukturun inkişaf etdirilməsi məsələlərini aktuallaşdırması və gündəliyə gətirməsi, strateji baxımdan olduqca mühüm addımdır. Həm də, bu addım zaman etibarı ilə tam yerinə düşdü. Ona görə ki, bunun üçün hazırda çox əlverişli konyuktura və siyasi şərait mövcuddur.

Azərbaycan üçün hazırda prioritet olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu və Beynəlxalq "Şimal-Cənub" Nəqliyyat dəhlizi ilə yanaşı, Cənub-Qərb və Vikinq layihələrinin işləməsi üçün səylər göstərilir.




Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM) məqsədi Çin, Mərkəzi Asiya, Xəzər və Qara dənizləri hövzələri və Avropa ölkələrindən yük daşımaları dövriyyəsini Azərbaycan üzərindən keçməklə hər iki istiqamətdə artıraraq, dövriyyə dinamikasının rəqabətliyini gücləndirməkdir. TBNM dəhlizinin iqtisadi əsaslandırılması və potensialın müəyyən edilməsi üçün Avropa İttifaqı və Çin arasındakı 106 milyon tondan artıq və dəyəri 520 milyard avrodan çox ticarət dövriyyəsini qeyd etmək lazımdır. TBNM vasitəsilə yükdaşımaları 12 gün ərzində həyata keçirilir və multimodal daşımanı bu marşrut üzrə əlverişli edir. Artıq TBNM vasitəsi ilə 3 yük qatarı Çindən Avropa istiqamətində nəql edilib. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi yekunlaşdırılandan sonra, minimum gündə 1 qatarın bu marşrutla nəql edilməsi planlaşdırılır. Şərq-Qərb nəqliyyat dəhlizində Azərbaycanın logistik imkanlarının artırılması istigamətində vacib addımlar atılır. Hazırda, məhz Azərbaycanın təşəbbüsü ilə Türkiyə və Gürcüstanın da iştirak etdiyi Bakı-Tbilisi-Qars dəmir yolu tikilir. Bu yol istismara verildikdən sonra Azərbaycan ilk dəfə Avropaya dəmir yolu şəbəkəsinə çıxış əldə edəcək. Paralel olaraq Azərbaycanın özündə zəruri infrastruktur segmentləri yaradılmaqdadır. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin bərə terminalının fəaliyyətə başlaması dəmir yol vasitəsilə yükdaşımaların əhəmiyyətini artıracaq. Eyni zamanda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ərazisində azad iqtisadı zona da yaradılacaq, bununla əlaqədar, artıq bir çox xarici şirkətlərlə müqavilələr bağlanıb. Bu əməkdaşlıq nəticəsində regionda ilk dəfə sürücüsüz daşıma, yəni öz-özünü idarə edən və süni intellektə sahib nəqliyyat vasitələrinin istifadəsi tətbiq olunacaq. Hazırda Bakının Ələt qəsəbəsi yaxınlığında özündə nəqliyyat və logistika sənayesi, əczaçılıq klasteri, ümumi istifadə üçün neft təchizatı bazası obyektləri, o cümlədən emaletmə, qablaşdırma və etiketləmə ərazilərini birləşdirən Azad Ticarət Zonası da daxil olmaqla müasir liman kompleksi inşa edilir. Bu yeni xidmətlərinin tətbiqi, Azərbaycanda gələcəkdə gəlirlərin artmasını təmin edən amillərdəndir.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi tranzit dəhlizləri arasında mühüm əhəmiyyət kəsb edən dəhlizlərdən biridir. Bu layihə Hindistan, Hind okeanı sahilində yerləşən dövlətləri, İran, Azərbaycan, Rusiya və Skandinaviya dövlətlərini vahid nəqliyyat marşrutunda birləşdirir. Rusiya ilə Hindistan arasında illik ticarət dövriyyəsi 8,3 milyon ton (8 milyard avro), Rusiya və İran arasında - 4 milyon ton (1,3 milyard avro), Rusiya və Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) arasında – 5,5 milyon ton (2,7 milyard avro) təşkil edir, Finlandiyanın isə Hindistan ilə illik ticarət dövriyyəsi 341 min ton (651 milyon avro), İran ilə - 10 min ton (41 milyon avro), Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ilə - 1 milyon ton (1,6 milyard avro) təşkil edir və bu dövriyyələrin əsas hissəsi Hind Okeanından Süveyş kanalı, Aralıq dənizi və Baltik dənizi vasitəsilə daşınmaqdadır. Şimal-Cənub Tranzit Dəhlizi digər marşrutlarla müqayisədə (xüsusilə, Süveyş kanalından keçən dəniz yolu) əsas üstünlüyü tranzit məsafəsinin və tranzit vaxtının iki-üç dəfə az olmasıdır. Hazırda, Azərbaycanla İran arasında yüklər avtomobillər vasitəsilə daşınır, dəhlizin digər hissələrində isə dəmir yolu ilə. Azərbaycan və İran dəmir yolları birləşdirildikdən sonra yükdaşımaların xərcləri daha da aşağı düşəcək və bu amil tranzit yüklərinin çoxalmasına xidmət edəcək.

Azərbaycanın tranzit potensialını artıracaq və digər nəqliyyat layihələri arasında mühüm əhəmiyyət kəsb edən layihələrdən biri də, Cənub–Qərb nəqliyyat dəhlizi hesab olunur. Dəhliz İran Körfəzi / Hindistan – İran – Azərbaycan – Gürcüstan – Qara dəniz – Avropa marşrutu üzrə fəaliyyət göstərəcək. Qeyd olunan nəqliyyat dəhlizinin inkişaf perspektivi Avropa İttifaqı ölkələri ilə ticarət dövriyyəsini ildən – ilə genişləndirən Hindistan dövlətidir. Avropa İttifaqı ilə Hindistan arasında cari ticarət dövriyyəsi illik 25,5 milyon ton təşkil edir və bu dövriyyənin 94 faizi Hind okeanından Süveyş kanalı və Aralıq dənizi vasitəsi ilə Avropa İttifaqına daşınmaqdadır. Bundan əlavə, 2014 – cü ilin statistik məlumatlarına görə Avropa İttifaqı ölkələrinin İran və Körfəz Ölkələri Əməkdaşlıq Şurası ölkələri ilə ticarət dövriyyəsi 207,1 milyard ABŞ dolları təşkil etmişdir. Cənub–Qərb Tranzit Dəhlizinin daşıma müddəti baxımından 50 faiz qısa və tranzit qiyməti baxımından isə rəqabətə davamlıdır.

Birləşmiş nəqliyyat qatarı "Vikinq" Layihəsinin marşrutu Litva, Belarus və Ukrayna ərazisindən keçərək Baltik regionun dəniz xətlərini Qara dəniz və Xəzər dənizinin analoji xətləri ilə birləşdirir. Layihənin əsas məqsədlərindən biri TRASEKA dəhlizi vasitəsilə Şimali Avropadan Mərkəzi Asiya, Çin, Əfqanıstan, Pakistan, Hindistan və İran körfəzi ölkələri istiqamətində əlavə yüklərin dəmir yolu ilə daşınmasına cəlb etməkdir.

"ADY Express" şirkətindən bildirilib ki, nəzərə alsaq ki, 2016-cı ilin 7 ayı ərzində, təkcə dəmir yolu vasitəsi ilə, 9 milyon tona yaxın yük daşınıb, ilin sonuna qədər bu rəqəm 16 milyon tona çatacaq. 2014-sü ildə isə Azərbaycanda dəmir yolu vasitəsi ilə 21 milyon tona yaxın yük nəql edilib. Reallaşdırılan nəqliyyat dəhlizləri, tikintisi başa çatan nəqliyyat qovşaqları, yaradılan hablar tam fəaliyyətə başladıqdan sonra isə Azərbaycan ərazisindən daşınan yüklərin həcmi ildə 50 milyon tona çata bilər. Burada həm Azərbaycan dəmir yolları, həm Azərbaycan Dəniz Gəmiçiliyinin, həm Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və tranzit yükdaşımalarda xidmət göstərən digər dövlət qurumlarının ümumi gəlirlərini hesablayanda (hər nəql olunan 1 ton yükə ümumən təxminən 50 ABŞ dolları), Azərbaycan dövlətinin görəcək faydasını (hər il təxminən 2,5 milyard ABŞ dolları) görmək çətin deyil.

Azərbaycanın apardığı regional ticarət siyasətinin xüsusiyyəti ondan ibarətdir ki, bu 4 marşrutların konkret coğrafi və yükdaşıma çərçivəsi olsa da, gələcəkdə onlar arasında bəzi sinerjilər yaradıla bilər. Onların hərəsi digərini tamamlayaraq, bu ticarət siyasətinin təməlində duran yükdaşımalarının şaxələndirilməsini təmin edə bilər. Azərbaycan ərazisindən keçən bu 4 tranzit dəhlizlərin təkmilləşdirilməsi dəniz və dəmir yolu nəqliyyatı üçün uzunmüddətli etibarlı bazarın formalaşmasında, ticarət əlaqələrinin genişləndirilməsində, yük daşımaları ilə bağlı infrastruktur sahələrinin inkişafında faydalı olacaq. Nəqliyyat dəhlizlərinin potensialından səmərəli istifadə, həmçinin gələcəkdə bu sahənin qeyri-neft sektorunda xüsusi çəkisinin artması ilə nəticələnəcək.

## "Xankəndi" gəmisinin 2017-ci ilin əvvəllərində tamamlanması planlaşdırılır

***"Şahdəniz-2" layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində sualtı infrastruktur yaradılır. Bunun üçün hazırda "Xankəndi" adlı sualtı əməliyyatlar üzrə ixtisaslaşmış xüsusi gəmi tikilir. Gəmi Bakı Gəmiqayırma Zavodunda inşa olunur. Zavod "Xankəndi" layihəsini 2017-ci ilin əvvəllərində tamamlamağı planlaşdırır.***

Zavod həmçinin SOCAR-ın dənizdə neft-qaz əməliyyatlarının genişləndirilməsi məqsədilə inşa etdirdiyi müasir tələblərə cavab verən 6-cı nəsil yarımdalma qazma qurğusunun tikintisində də fəal iştirak edib. Dənizin 1000 metrədək dərinliklərində 12 min metr qazma gücünə malik qurğunun pantonlarının və üst göyərtələrinin inşası burada tikilib təhvil verilib. Maliyyələşdirilməsi Dövlət Neft Fondu ilə birgə həyata keçirilən qurğunun tikintisi gələn ilin əvvəlində başa çatdırılacaq, bununla da Xəzərdə aparılan qazma işləri daha da intensivləşdiriləcək.

DƏNİZ



## TƏHSİL HƏR BİR DÖVLƏTİN GƏLƏCƏYİDİR

*Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir. Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə, təhsilin keyfiyyəti indi ön plana çıxır. Bu istiqamətdə də islahatlar aparılır. Eyni zamanda, müəllimlərin fəaliyyətini stimullaşdırmaq üçün islahatlar aparılır. Müəllimlərin əməkhaqları qaldırılır. Əlbəttə ki, hər bir məktəbin əsas qiyməti onun fəaliyyətinin göstəriciləri ilə bağlıdır. Hər bir məktəb çalışmalıdır ki, təhsilin səviyyəsi yüksək olsun.*

*Azərbaycan uğurla inkişaf edən ölkədir. Son illər ərzində biz bütün istiqamətlər üzrə böyük nailiyyətlərə imza atmışıq. Elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün isə əlbəttə ki, insanlar hazırlıqlı, gənclər bilikli olmalıdırlar. Əgər inkişaf etmiş ölkələrin tarixinə və bu gününə baxsaq, görərik ki, o ölkələrdə təhsil, texnologiya, elm inkişaf edir. Biz də bu yolla gedirik. Azərbaycanda gənc nəslin bilikli, savadlı olması ölkəmizi gücləndirir. Çünki iqtisadiyyatda, sənayedə, bütün sahələrdə çox gözəl mütəxəssislər lazımdır. Ölkəmizin çox uğurlu inkişaf dinamikası var. Kadr hazırlığı, mütəxəssislər, peşəkarlar əlbəttə ki, bu dinamikaya əlavə güc verəcək. Ona görə, təhsilin keyfiyyəti ilə bağlı çox önəmli addımlar atılır, islahatlar aparılır.*

*... Bizim gənc nəslimiz vətənpərvər olmalıdır, milli ruhda böyüməlidir. Burada da əlbəttə ki, müəllimlərdən çox şey asılıdır. Gənclərin həm ailələrdə, həm məktəblərdə milli ruhda tərbiyə alması xüsusi əhəmiyyət daşıyır. Xüsusilə indiki şəraitdə ki, dünyada müxtəlif proseslər gedir, qloballaşma adı ilə faktiki olaraq eyniləşmə siyasəti aparılır, kütləvi informasiya vasitələri ilə müxtəlif təxribatlar ortaya atılır. Ona görə, Azərbaycan cəmiyyəti bundan sonra da çox möhkəm, milli, mənəvi dayaqlar əsasında inkişaf etməlidir. Bu gün bu, belədir. Bu gün bizim siyasətimizin təməlində milli maraqlarımız, milli dəyərlərimiz, Azərbaycan dəyərləri dayanır. Bu dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün hər şeydən üstün olmalıdır. Elə etməliyik ki, gələcək nəsil də bu istiqamətdə inkişaf etsin. Ona görə, vətənpərvərlik, Vətənə olan bağlılıq, milli mənəvi dəyərlər məktəblərdə mütləq geniş vüsət almalıdır, müəllimlər də bu istiqamətdə daha fəal iş aparmalıdırlar. Xüsusilə nəzərə alsaq ki, xalqımız çox istedadlı xalqdır, dünya xəzinəsinə çox böyük töhfələr veribdir, tarix boyu bizim görkəmli nümayəndələrimiz dünya üçün böyük işlər görmüşlər.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# DƏNİZ AKADEMİYASINDA "AÇIQ QAPI GÜNÜ"

***Sentyabrın 9-da Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Dəniz Akademiyasında "Açıq qapı günü" - yenicə tələbə adını qazanan gənclər və onların valideynləri ilə görüş keçirilib. Görüşdə Gəmiçiliyin rəhbər işçiləri, donanma rəisləri, gəmi təmiri zavodlarının direktorları, Bakı Gəmiqayırma Zavodunun və Gəmiçiliyin alyans tərəfdaşı olan "Caspian Marine Services Ltd" şirkətinin nümayəndələri iştirak ediblər.***








Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Çingiz Əliyev görüşü açaraq, builki tələbə qəbulunun yekunları, Akademiyada tədrisin təşkili, tələbələr üçün yaradılan şərait barədə məlumat verdi.

Bildirdi ki, 2016-2017-ci tədris ili üçün müəyyən edilmiş qəbul planında nəzərdə tutulan 370 yerə 309 abituriyent daxil olub. İlk dəfə olaraq onların sırasında 600-dən yuxarı bal toplayanlar da var. Bu, çox sevindirici haldır. Hazırda Dəniz Akademiyasında 1200-ə yaxın tələbə təhsil alır. Son iki ildə onların müvəffəqiyyət göstəriciləri (imtahanlardan uğurla keçənlərin sayı) 67,5 faizdən 80,45 faizə, keyfiyyət göstəriciləri isə (imtahanlardan "əla" və "yaxşı" qiymət alanların sayı) 13,5 faizdən 36,7 faizə yüksəlib. Bugün Akademiyada 63 tələbə əlaçıdır, əla və yaxşı oxuyanlar 305 nəfərdir.

Azərbaycan Dövlət Dəniz Akademiyasının beynəlxalq əlaqələri ildən-ilə genişlənir. Artıq 10 ölkədən 17 ali məktəb ilə əməkdaşlıq edilir. Onların sırasında Rusiya, Türkiyə, Polşa, Ukrayna, Latviya, Bolqarıstan və sair ölkələrin aparıcı dənizçilik universitetləri və akademiyaları var.

Sosial məsələlərə gəldikdə isə, tələbələr dərs vəsaitləri, yataqxana, geyim forması və gündə 2 dəfə isti yeməklə pulsuz təmin olunurlar. Bu, Gəmiçilik rəhbərliyi tərəfindən Akademiyanın qayğılarına və problemlərinə yaxından göstərilən diqqət, atılan əməli addımlar nəticəsində mümkün olub.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC sədrinin birinci müavini Zamiq İsmayılov Xəzərdə ticarət gəmiçiliyinin və neft donanmasının tarixi, respublikamızda dəniz nəqliyyatının inkişafı, ölkə rəhbərliyinin Gəmiçilik qarşısında qoyduğu vəzifələr, strateji hədəflər barədə ətraflı söhbət açdı. Vurğuladı ki, Ulu Öndər Heydər Əliyev həm sovet dönəmində, həm də müstəqillik illərində dəniz nəqliyyatına böyük qaygı göstərib, prezident İlham Əliyevin diqqəti sayəsində bu sahədə struktur islahatları uğurla davam etdirilir, Gəmiçiliyin müasir standartlara uyğun çevik bir şirkətə çevrilməsi istiqamətində əhəmiyyətli addımlar atılır. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi hazırda istər regionda, istərsə də bütövlükdə MDB məkanında texniki imkanlarına və maddi-texniki bazasına görə liderlər sırasındadır.

Zamiq İsmayılov yeni, müasir gəmilərin istismarında bilikli və mükəmməl savada malik kadrlara ehtiyac duyulduğunu söyləyərək xüsusi qeyd etdi ki, Akademiyanı müvəffəqiyyətlə bitirən məzunların əksəriyyəti Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində, Bakı Gəmiqayırma Zavodunda, bir sıra digər yerli və xarici şirkətlərdə çalışırlar.

Bugün Gəmiçilikdə Akademiyanı müxtəlif vaxtlarda bitirmiş 790-a yaxın məzun işləyir, onların 274-ü rəhbər işçidir. Məzunlar nəinki Xəzərdə, həm də beynəlxalq sularda işləmək imkanına malikdirlər.

Zamiq İsmayılov birinci kursa daxil olmuş tələbələrə, bütövlükdə Dəniz Akademiyasının tələbə-müəllim heyətinə yeni tədris ilində uğurlar arzuladı, 500-600 baldan yuxarı nəticə göstərən 9 tələbəyə noutbuk təqdim etdi.

Bakı Gəmiqayırma Zavodunun baş direktor müavini İmanverdi Həsənov Xəzər hövzəsində ən böyük və müasir sənaye müəssisələrindən olan BGZ-də gənclərin karyera imkanlarından, iş şəraitindən, həyata keçirilən layihələrdən danışdı, bilikli mütəxəssislərə istehsalatda həmişə yer olduğunu vurğuladı.

Sonda gənclərin və valideynlərin sualları səsləndi, görüş iştirakçıları Dəniz Akademiyasının auditoriyaları və laboratoriyaları ilə tanış oldular.

# AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASININ YENİ TƏDRİS KORPUSU İSTİFADƏYƏ VERİLDİ

***2004-cü ildən etibarən 15 sentyabr bütün respublikamızda Prezident Sərəncamı ilə "Bilik günü" kimi qeyd edilir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin çoxşaxəli fəaliyyətində Gənclər siyasəti çox mühüm yer tutur. Gənclər ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında böyük rol oynayırlar və Azərbaycanda gənclər siyasəti həmişə dövlət siyasətinin əsas tərkib hissəsi kimi xüsusi əhəmiyyətə malikdir.***

Dövlət başçısının bu siyasəti Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi tərəfindən tam dəstəklənir və bizim strukturlarda uğurla həyata keçirilir. Gəmiçilikdə gənclərə hər bir sahədə yer verilir, bütün lazımi şərait yaradılır. Ali təhsilli dənizçi kadrların hazırlanması zərurətini nəzərə alaraq, Azərbaycan Dövlət Dəniz Akademiyasında tədris prosesi, onun maddi-texniki bazası, laboratoriya və trenajorları ildən-ilə təkmilləşdirilir, yeni, müasir avadanlıqlar alınır.

Sevindirici haldır ki, sentyabrın 15-də Dəniz Akademiyasının yeni korpusu tələbələrin istifadəsinə verilib. Kazım Kazımzadə küçəsi, 127 ünvanda, "Elmlər Akademiyası" metrosunun yaxınlığında yerləşən dördmərtəbəli binada Xəzər Dəniz Gəmiçiliyinin vəsaiti hesabına əsaslı təmir işləri görülüb, ərazisi abadlaşdırılıb. Yeni tədris korpusunun foyesində Ümummilli lider Heydər Əliyevin zəngin həyat yolundan bəhs edən guşə yaradılıb, burada Ulu Öndərin büstü qoyulub. Heydər Əliyev guşəsində toplanan eksponatlar gənclərin dövlətçilik və vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır.

Tədris korpusunda 20 auditoriya, o cümlədən kompyuter otağı, geniş akt zalı, 240 nəfərlik yeməkxana təşkil olunub, binanın istilik sistemi yenidən qurulub. Burada təmizlik və səliqə-sahman göz oxşayır. Auditoriyalar internet, proyektor avadanlıqları və əyani vəsaitlərlə tam təmin edilib, müəllimlər üçün də hər cür şərait yaradılıb.

Gəmiçilik sistemində bu tədris ilindən daha bir təhsil müəssisəsi fəaliyyətə başlayır. Nazirlər Kabinetinin 19 may 2016-cı il tarixli, 197 nömrəli qərarı ilə Təhsil Nazirliyinin Dəniz Balıq Sənayesi Kolleci "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyinə verilib və Azərbaycan Dənizçilik Kolleci adlandırılıb. Gəmiçiliyin rəhbərliyi Dənizçilik Kollecinin fəaliyyəti ilə bağlı zəruri tədbirlər həyata keçirib. İndiyə qədər özünün binası olmayan bu kollec üçün Əhmədlidə tədris binası ayrılıb. Bilik gününə qədər bu bina da tam təmir edilərək, sentyabrın 15-də istifadəyə verilib.

Binada 44 tədris otağı, idman zalı, foye və dəhlizlər əsaslı təmirdən çıxıb, ərazidə böyük həcmdə abadlıq işləri görülüb, yeni hasar çəkilib, asfalt döşənib.

Bilik günü həm Dəniz Akademiyası, həm də Dənizçilik Kolleci qapılarını tələbələrin üzünə açdı, yeni tədris ilinə start verildi. Dənizçi peşəsi insandan fədakarlıq, bilik, iradə tələb edir və indi hər şey gənclərin özlərindən asılıdır. Bu çətin yolda onlara uğurlar arzulayırıq.

***Vüqar SADIQOV***













## Azərbaycanın haqlı mövqeyi açıq-aşkar dəstəklənir

***Sentyabrın 13-18-də Venesuela Bolivar Respublikasının Marqarita adasında Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının "İnkişaf naminə sülh, suverenlik və həmrəylik" devizi altında XVII Sammiti keçirilib.***

Sammitin yekun sənədində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bənd də yer alıb.

Yekun sənəddə dövlət və hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməyə baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsinin hələ də həll olunmaması, beynəlxalq və regional sülh və təhlükəsizliyi təhdid altında qoymaqda davam etməsi ilə bağlı təəssüf ifadə ediblər. Onlar BMT Nizamnaməsində öz əksini tapmış gücdən istifadə etməmək prinsipinin önəmini bir daha təsdiq edib, tərəfləri münaqişəni Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri əsasında həll etməyə çağırıblar.

Beləliklə, 120 dövlətin üzv olduğu, BMT-dən sonra dünya miqyasında ən çox ölkənin təmsil olunduğu nüfuzlu beynəlxalq təsisatın - Qoşulmama Hərəkatının yekun sənədində Azərbaycanın haqlı mövqeyi açıq-aşkar dəstəklənir. Bu, Ermənistanın beynəlxalq miqyasda aldığı daha bir zərbə, Azərbaycan diplomatiyasının isə daha bir uğurudur.

## Hərbi gəmi tankerlə toqquşub

***Filippində ölkənin Hərbi-Dəniz Qüvvələrinə məxsus gəmi Liberiya bayrağı altında üzən tankerlə toqquşub.***

RİA Novosti agentliyinin verdiyi xəbərə görə, qəza nəticəsində zərərçəkən olmayıb, hərbi gəmiyə cüzi ziyan dəyib.

Məlumata əsasən, tankerlə hərbi gəmi Zamboanqa şəhəri yaxınlığında, sahildən 1 km aralıda toqquşub.

Faktla bağlı araşdırma aparılır. Filippin Sahil Mühafizəsi Xidməti heyəti yerli və Ukrayna vətəndaşlarından ibarət tankerin yola düşməsinə qadağa qoyub.



## Bərə qəzası nəticəsində 18 nəfər həlak olub

***Tailandın mərkəzi hissəsində, Ayutthay şəhəri yaxınlığında çay bərəsinin qəzaya uğraması nəticəsində azı 18 nəfər həlak olub.***

TASS informasiya agentliyi xəbər verir ki, həyatını itirənlər arasında qadınlar və bir uşaq da var.

İnsident nəticəsində, həmçinin 10 nəfərdən çox insanın itkin düşdüyü bildirilir. Qəza yerində axtarış-xilasetmə işləri davam edir.

Qeyd edək ki, Çaoprayya çayında 150 nəfər sərnişin daşıyan bərə Banqkokdan 80 kilometr məsafədə körpü dirəyinə çırpılaraq batıb. Bərə dini mərasimdən sonra Ayutthay şəhərindən Banqkoka qayıdan müsəlmanları daşıyırmış.

Bərənin 67 yaşlı kapitanı polis tərəfindən saxlanılıb və ona qarşı təhlükəli idarəetmə və həddən artıq yüklənmiş gəmi ilə reysə çıxmaqla bağlı ittiham irəli sürülüb.

# O illərdə “Dəniz” nədən yazırdı

## (Nöqtəsinə, vergülünə dəymədən)




### Çalışırıq... düzələr...

Azərbaycanın mərkəzi olan neft Bakisində XVIII Ümumittifaq partiya konfransının qərarlarından sonra təmizlik və mədənilik uğrunda mübarizə daha da genişlənmişdir. Lakin Baki portunun territoriyasında təmizlik işlərinə lazımınca fikir verilmir.

Baki dəniz vağzalından Kaspinin Krasnovodsk, Mahac-Qala, Lənkəran və s. portlarından hər gün yüzlərcə sərnişin gedir. Lakin bu vağzalda sərnişinlərə kultur xidmət edilmir. Misal üçün, bir neçə fakt göstərək:

İyun ayının 5-i gecə saat 1-dir. Baki dəniz vağzalının üçüncü zalı sərnişinlərlə dolmuşdur. Vağzalda sərnişinlər üçün tranzit yataq otağı olmadığından, sərnişinlər səhərə kimi dəniz vağzalının 3-cü zalında qalmışdılar.

Dəniz vağzalında olan ana və uşaq evi uşaqlı sərnişin qadınları hərtərəfli hazırlıqlı qarşılamalıdır. Lakin bu evin tərbiyəçiləri və tibbi bacıları vağzalda uşaqlı anaların əksəriyyətini ana və uşaq evinə cəlb etməkdə aktivlik göstərmirlər.

Dəniz vağzalının naçalniki Qurin yoldaş vağzalda tranzit sərnişinləri mədəni qarşılamaq üçün əldə olan imkanlardan tamamilə istifadə etmir. Onun dediyinə görə sərnişinlər üçün domino, şaşki və s oyun əyləncələri vardır. Halbuki bu oyun şeylərini sərnişinlərə çatdıran yoxdur.

Baki dəniz vağzalında tranzit otağı təşkil etmək məsələsi hələ keçən ildən irəli sürülmüş idi. Hətta onun üçün müəyyən pul da ayrılmışdı. Lakin bu iş axıra çatdırılmadı.

Dəniz vağzalının 3-cü zalında olan bufetin işində də çatışmayan cəhətlər çoxdur. Burada yemək istəyənlər saatlarla gözləməli olurlar. Kelner Badalov müştərilərlə kultur rəftar etmir. Bufet natəmiz və səliqəsiz saxlanılır.

Bufetdə papiros çəkməyin qadağan edilməsinə baxmayaraq, burada vağzal işçilərinin özləri qaydaya tabe olmayaraq, papiros çəkirlər.

Vağzalın naçalniki Qurin yoldaş işdə olan nöqsanları gələcəkdə aradan qaldırmaq üçün “çalışdığını” bildirir. O, “olar... çalışırıq... və düzələr...” – kimi vədlər verir. Lakin onun heç bir vədi yerinə yetirilmir.

Dəniz vağzalını Baki şəhərinin ən mədəni və nümunəvi müəssisələri sırasına keçirmək lazımdır.

*B. Cəbizadə,*
*“Qaspi bolşeviki” qəzeti, № 45 (1622),*
*9 iyun 1941-çi il*

### Yeni dənizçi kadrları

Dənizçilərin FZT məktəbini bitirən gənclər hazırda Kaspflotun və Kasptankerin gəmilərində, gəmi təmir edən zavodlarda matros, çilingər, maşinist, radist və s. bu kimi vəzifələrdə böyük həvəslə çalışırlar. Yeni dənuzçi kadrları və işlədikləri sahələrdə görkəmli iş nümunələri göstərirlər. İndi 12 nömrəli FZT məktəbinə yeni qəbul başlamış, bu qəbul müvəffəqiyyətlə keçir.

FZT məktəbinə könüllü olaraq ərizə verənlərdən komsomolçu Ənvər Aydəmirovu, Cavanşir Xanlarovu, Pama Əliyevi, Nadir Əliyevi, Şükür Məmmədovu və başqalarını göstərmək olar.

Budur, Ənvər Aydəmirov komissiya qarşısından keçərkən belə deyir: Mənə keçən qəbulda FZT məktəbinə daxil olmağa imkan olmadı. Mən FZT məktəbinin yeni qəbulunu səbrsizliklə gözləyirdim. İndi artıq həmin gün yetişmişdir. Mənim FZT məktəbinə qəbul olmağım nəinki mənim özümü, həmçinin ata-anamı da çox sevindirir. Mən gələcəkdə ixtisaslı bir işçi olacağam.

*A. Gülhüseyn*

### Gəmi plansız işləyir

Kasptankerin neftdaşıyan “Komsomol” paroxodunun dənizçiləri dövlət neft daşıma planını ödəmək və artıqlaması ilə yerinə yetirmək uğrunda böyük ruh yüksəkliyi ilə çalışırlar. Lakin Kasptankerin plan şöbəsi (naçalniki Lastovyekçi yoldaşdır) gəmimizi düzgün planla təmin etmədiyindən demek olar ki, biz plansız işləyirik.

“Komsomol” paroxoduna bu il illik plan iki dəfə göndərilmişdir. Birinci planda 25 reys yedəksiz və 43 reys yedəklə reys edərək 45 min mil üzmək qeyd edilmişdir. İkinci planda isə yedəksiz 38, yedəklə 41 reys edərək 50 min mil üzmək qeyd edilmişdir.

Aylıq planlar isə tamamilə yarıtmazdır. “Komsomol” paroxoduna may ayının 5-də aylıq qarfik göndərilmişdi. Bu qrafikə əsasən gəmi Bakidən Mahac-Qalaya reys dövriyyəsi 71 saat olmaqla 5 reys və yedəklə Bakidən Həştərxana hər reys dövriyyəsi 120 saat olmaqla 3 reys etməli idi.

Bundan əlavə, “Komsomol” paroxodu “Norma” şalandasını yedəkdə aparır. Gəmiçilk idarəsi tərəfindən planda “Norma” şalandası üçün yük götürmə vaxtı 6 saat, “Komsomol” paroxodu üçün isə 3 saat 20 dəqiqə müəyyən edilmişdir. Halbuki “Komsomol” paroxodu öz yük götürməsini nə zaman qurtarırsa-qurtarsın, “Norma” şalandasını gözləməlidir. Beləliklə planda bu nəzərdə tutulmalı idi.

Bütün bunlar onu göstərir ki, Kasptankerin plan şöbəsi tərəfindən tutulan planlar gözəyarı tərtib olunur.

*Korolyov,*
*“Komsomol” paroxodu kapitanının siyasi işlər üzrə köməkçisi*
*“Qaspi bolşeviki” qəzeti, № 47 (1624),*
*16 iyun 1941-çi il*

### 1941-ci il iyunun 22-də Sovet Sosialist Respublikaları İttifaqı Xalq Komissarları Soveti sədrinin müavini və Xalq Xarici İşlər Komissarı V. M. Molotov yoldaşın radio ilə çıxışı

Sovet İttifaqının vətəndaşları və vətəndaş qadınları!

Sovet hökuməti və onun başçısı Stalin yoldaş aşağıdakiləri bildirməyi mənə tapşırmışlar:

Bugün səhər saat 4-də, Sovet İttifaqına heç bir iddia vermədən, müharibə elan etmədən qerman qoşunları ölkəmizə basqın etmişlər, bir çox yerdə sərhəddimizə hücum etmişlər və şəhərlərimizdən Jitomiri, Kiyevi, Sevastopolu, Kaunası və bəzi başqa şəhərləri öz aeroplanlarından bombardman etmişlər, bunun nəticəsində iki yüzdən artıq adam ölmüş və yaralanmışdır. Rumıniya və Finlandiya territoriyalarından da düşmən aeroplanlarının basqını olmuş və artilleriya atəşi açılmışdır.

Ölkəmiz üzərinə bu eşidilməmiş hücum mədəni xalqların tarixində misli görünməmiş xainlikdir. Ölkəmiz üzərinə hücum, SSRİ ilə Qermaniya arasında hücum etməmək müqaviləsi bağlanmış olduğuna və bu müqavilənin bütün şərtlərini Sovet hökumətinin vicdanla yerinə yetirdiyinə baxmayaraq edilmişdir. Ölkəmiz üzərinə hücum, bu müqavilənin həyata keçirildiyi müddətdə müqavilənin yerinə yetirilməsinə dair Qermaniya hökumətinin SSRİ-yə bir dəfə də olsun iddia verə bilmədiyinə baxmayaraq edilmişdir. Sovet İttifaqı üzərinə bu quldurcasına hücumun bütün məsuliyyəti bütünlüklə və tamamilə qerman faşist hakimlərinin üzərinə düşür.

Artıq hücum başlandıqdan sonra, Qermaniyanın Moskvadakı səfiri Şulenburq səhər saat 5-30 dəqiqədə, Xalq Xarici İşlər Komissarı olmaq etibarilə mənə öz hökuməti adından bildirdi ki, Qermaniyanın şərq sərhəddinə Qızıl Ordu Hissələrinin toplanması ilə əlaqədar olaraq Qermaniya hökuməti SSRİ-yə qarşı müharibə etməyi qərara almışdır.

Mən, buna cavab olaraq, Sovet hökuməti adından bildirdim ki, son dəqiqəyədək Qermaniya hökuməti Sovet hökumətinə heç bir iddia verməmiş, Sovet İttifaqının sülhpərvərlik mövqeyinə baxmayaraq Qermaniya SSRİ üzərinə hücum etmişdir və bununla faşist Qermaniyası hücum edən tərəfdir.

Sovet İttifaqı Hökumətinin tapşırığı ilə mən bunu da deməliyəm ki, heç bir məntəqədə qoşunlarımız və aviasiyamız sərhəddin pozulmasına yol verməmişlər və buna görə, guya, sovet aviasiyasının Rumıniya aerodromlarını bombardman etdiyi haqqında Rumıniya radiosunun bugün səhər verdiyi bəyanat başdan-başa yalandır və fitnədir. Sovet-qerman paktına Sovet İttifaqının əməl etmədiyi haqqında sonradan ittiham materialı uydurmağa çalışan Hitlerin bütün bu günkü deklarasiyası da yalan və fitnədir.

İndi, Sovet İttifaqı üzərinə hücum başlandıqdan sonra, Sovet hökuməti quldur hücumunu dəf etmək və qerman qoşunlarını vətənimizin territoriyasından qovmaq haqqında qoşunlarımıza əmr vermişdir.

Bizi bu müharibəyə, əzablar çəkməkdə olduqlarını yaxşı başa düşdüyümüz qerman xalqı deyil, qerman fəhlələri, kəndliləri və intelliqensiyası deyil, fransızları, çexləri, polyakları, serbləri, Norveqiyanı, Belqiyanı, Daniyanı, Hollandiyanı, Qresiyanı və başqa xalqları qul halına salmış Qermaniyanın qaniçən faşist hakimləri dəstəsi çəkmişdir.

Sovet İttifaqı hökuməti qəti əmin olduğunu bildirir ki, igid ordumuz, flotumuz və sovet aviasiyasının cəsarətli şahinləri vətən qarşısında, sovet xalqı qarşısında öz borclarını şərəflə yerinə yetirəcəklər və aqressora sarsıldıcı zərbə endirəcəklər.

Xalqımız hücum edən azğın düşmənlə birinci dəfə üz-üzə gəlmir. Vaxtilə Napoleonun Rusiya yürüşünə xalqımız vətən müharibəsilə cavab vermişdi və Napaleon məğlub və məhv oldu. Ölkəmizə qarşı yeni yürüş elan etmiş azğın Hitlerin də axırı belə olacaqdır. Qızıl Ordu və bütün xalqımız yenə vətən uğrunda, namus uğrunda, azadlıq uğrunda qalibiyyətli vətən müharibəsi edəcəklər.

Sovet İttifaqı Hökuməti qəti əmin olduğunu bildirir ki, ölkəmizin bütün əhalisi, bütün fəhlələri, kəndliləri və intelliqensiyası, kişiləri və qadınları öz vəzifələrinə, öz işlərinə tam şüurla yanaşacaqlar. Bütün xalqımız indi həmişəkindən daha sıx və vahid olmalıdır. Qızıl Ordunun, flotun və aviasiyanın bütün ehtiyaclarını təmin etmək üçün, düşmənə qalib gəlməyi təmin etmək üçün hər birimiz özümüzdən və başqalarından həqiqi sovet patriotuna layiq surətdə intizamlı, mütəşəkkil, fədakar olmağı tələb etməliyik.

Sovet İttifaqının vətəndaşları və vətəndaş qadınları, hökumət sizi, öz sıralarınızı şanlı bolşevik partiyamızın ətrafında, Sovet hökumətimizin ətrafında, böyük rəhbərimiz Stalin yoldaşın ətrafında daha sıx birləşməyə çağırır.

Həqiqət bizimlədir. Düşmən məhv ediləcəkdir. Biz qalib gələcəyik.

*“Kaspi bolşeviki” qəzeti, № 50 (1627),*
*26 iyun 1941-çi il*

### Müharibə zamanı fəhlə və qulluqçuların iş vaxtı rejimi haqqında SSRİ Baş Soveti Prezidiumunun Fərmanı

Müharibə zamanının ehtiyacları ilə əlaqədar olan istehsal tapşırıqlarının yerinə yetirilməsini təmin etmək məqsədilə, SSRİ Baş Soveti Prezidiumu qərara alır:

1. Sənaye, transport, kənd təsərrüfatı və ticarət müəssisələri direktorlarına, SSRİ Xalq Komissarları Sovetinin icazəsi ilə, istər müəssisənin bütün fəhlələri və qulluqçuları üçün, istərsə ayrı-ayrı çexlər, uçastoklar, fəhlə və qulluqçu qruppaları üçün, gündə bir saatdan üç saata qədər davam etməklə işdən kənar vaxtda məcburi surətdə işləmək qaydası qoymaq ixtiyarı verilsin.

2. 16 yaşına çatmamış şəxslər gündə iki saatdanartıq davam etməməklə, işdən kənar vaxtda məcburi surətdə işlədilməyə cəlb edilə bilərlər.

3. Altı aylıqdan başlayaraq hamiləlik dövründə olan qadınlar, habelə uşağa süd verən qadınlar-uşağı altı ay ərzində əmizdirdikcə işdən kənar vaxtda məcburi surətdə işlədilməyə cəlb edilə bilməzlər.

4. Fəhlə və qulluqçulara işdən kənar vaxtda məcburi surətdə işlədilmək haqqı bir yarım miqdarında verilsin.

5. Bütün dövlət və kooperativ idarə və müəssisələrində, ictimai idarə və müəssisələrdə növbəti və əlavə məzuniyyətlər ləğv edilərək, bunlar istifadə edilməmiş məzuniyyət üçün pul kompensaçiyası ilə əvəz edilsin. Məzuniyyət ancaq xəstə olduqda verilsin. Hamiləlik və doğum üçün məzuniyyətlər SSRİ Xalq Komissarları Soveti, UİK(b)P MK və UİHİMS-nin 1938-ci il 28 dekabr tarixli qərarının 14-cü maddəsinə uyğun olaraq verilsin.

*SSRİ Baş Soveti Prezidiumunun sədri*
*M. Kalinin,*
*SSRİ Baş Soveti Prezidiumunun katibi*
*A. Qorkin*
*Moskva, Kreml.*
*26 iyun 1941-ci il.*
*“Kaspi bolşeviki” qəzeti, № 51 (1628),*
*1 iyul 1941-çi il*

### Tapşırıqları iki qat yerinə yetircəyəm

Sovet İttifaqı üzərində faşist Qermaniyasının həyasız və quldur hücumu haqqında SSRİ Xalq Komissarları Soveti sədrinin müavini və xalq xarici işlər komissarı Molotov yoldaşın radio ilə verdiyi xəbər Parkommuna adına zavodun gəmi təmirçiləri arasında böyük hiddət oyatmışdır.

Bizim zavodun fəhlə, injiner-texniki işçiləri və qulluqçularının yekdil arzusu belədir:

- Sovet torpağının bir qarışı da düşmənə verilməyəcəkdir. Düşmən öz torpağında məhv ediləcəkdir.

Zavodun bütün işçiləri, Qızıl Orduya və qızıl hərbi dəniz flotuna yaxından kömək etmək üçün həmişəkindən gəlirli işləməyi, daxili imkanlardan tamamilə istifadə etməyi, əmək intizamını durmadan möhkəmləndirməyi, əmək məhsuldarlığını daha da yüksəltməyi üzərlərinə götürmüşlər.

Mən də, bu mühüm vəzifələrin yerinə yetirlməsi uğrunda ciddi çalışıram. May ayı tapşırıqlarını 246,7 faiz yüksək keyfiyyətlə ödəmişəm. İyun ayının 9-da 16 saatlıq işi 5 saatda, ayın 17-dən 23-nə kimi 108 saatlıq işi 4 saatda yerinə yetirmişəm.

Bunlarla qəti surətdə kifayətlənmirəm. Daha yeni nəaliyyətlər əldə etməyi, əmək məhsulunun keyfiyyətini yaxşılaşdırmağı, tapşırıqları həmişə iki qat artıq yerinə yetirməyi üzərimə götürmüşəm.

*B. Cəbrayılov,*
*Transoprt çexinin çilingəri*
*“Qaspi bolşeviki” qəzeti, № 50 (1627),*
*26 iyun 1941-çi il*

### Qalibiyyət bizimlədir

Paris Kommunası adına zavodda təmirə dayanan “Kazaxıstan”, “Sentrosoyuz”, “Çiçerin”, “Sverdlov”, “Komsomoles” və başqa gəmi komandalarının Stalin yoldaşın radio çıxışına həsr olunmuş mitinqi olmuşdur.

Çıxış edənlərdən “Sentrosoyuz” gəmisinin baş mexanik köməkçisi staxanovçu Buntov yoldaş demişdir:

- Biz, sevimli rəhbərimiz Stalin yoldaşı əmin edirik ki, vətənə, böyük Lenin-Stalin partiyasına axıradək sədaqətli olacağıq. Düşməni əzmək üçün son damla qanımız qalana qədər mübarizə edəcəyik. Quduz Hitleri və onun it sürüsünün külünü göyə sovruncaya qədər əlimizdən gələn hər bir şeyi edəcəyik. Dənizçilər bunun üçün bütün qüvvələrini səfərbərliyə almışlar.

Çıxış edən başqa yoldaşlar da hökumətimizə, Stalinimizə, qəhrəman Qızıl Ordu və flotumuza, aviasiyamıza, azad və xoşbəxt ölkəmizə hədsiz sədaqətli olduqlarını, hər dəqiqə qanlı faşizmə qarşı vətən müharibəsinə qalxmağa hazır olduqlarını bildirmişlər.

Gəmi komandalarının mitinqdə bir səslə qəbul etdikləri qətnamədə deyilir: - Biz, bolşeviklər partiyası ətrafında həmişəkindən daha sıx toplaşacağıq. Dəniz transportunun daha da inkişafı üçün var qüvvəmizlə çalışacağıq.

*“Qaspi bolşeviki” qəzeti, № 53 (1630),*
*8 iyul 1941-çi il*

### Məktəbli qızlar Qızıl Ordu sıralarına gedənləri əvəz edirlər

Bir çox qadınlar Kaspidə könüllü olaraq şəfəqqət bacıları sırasına və istehsalata daxil olurlar. Misal üçün, gəmi təmir edən Zaqfederasiya adına zavoda Baki dəniz texnikumundan və başqa kütləvi məktəblərdən çoxlu məktəbli qızlar işləməyə gəlmişlər. Texnikumun şagirdlərindən Fedoseyeva, Saşkova, Qorepekina, Kozlova və başqaları Zaqfederasiya adına zavodun elektrik çexində işləyir və istehsalat tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək uğrunda mübarizədə hər gün yeni qələbələr əldə edirlər.

Yeni işə gələnlərdən Lyaniya yoldaş deyir:

- Mən, istehsalatı hədsiz dərəcədə sevirəm. Qan içən nemes faşistlərini darmadağın etmək şüarı altında mən çexdə istehsalat tapşırıqlarının yerinə yetirilməsi uğrunda mübarizədə staxanovcasına çalışıram.

*“Qaspi bolşeviki” qəzeti, № 54 (1631),*
*12 iyul 1941-çi il*

### Biz, tək deyilik

Bizim gəminin komandası Qermaniyaya qarşı müharibədə birgə hərəkət etmək haqqında SSRİ ilə Böyük Britaniya hökumətləri arasında bağlanmış saziş xəbərini böyük razılıq hissi ilə qarşılamışdır.

Biz, vətən müharibəsində tək deyilik. Hər tərəfdən bizim dostlarımız Hitlerə qarşı mübarizəyə qalxırlar.

İndi, sovet adamları tamamilə öz qüvvəsini düşməni dəf etmək işinə sərf edir. Komandamız bu mühüm məsələdə özünün müqəddəs vəzifələrini namusla yerinə yetirməkdədir.

Mən, komandanın bir sıra üzvlərini, Qızıl Ordu və Hərbi-Dəniz flotumuzun tələblərini təmin etmək üçün əmək cəbhəsində istehsalat tapşırıqlarını yerinə yetirməkdə yarışa çağırmışam.

Müharibə başlandıqdan sonra hər gün iş vaxtından əlavə olaraq iki-üç saat işləyirəm. Bütün tapşırıqları artıqlaması ilə yüksək keyfiyyətlə yerinə yetirirəm.

Gəminin baş maşın hissəsində detalları öz qüvvəmlə təmir etmişəm. Onları, təmirdən sonra yaxşı qayda ilə yerinə yığmışam. Bundan başqa, bir çox detalların təmiri işini nümunəvi olaraq yerinə yetirmişəm.

Biz, yaxşı bilirik ki, düşmən məhv ediləcəkdir. Bunun üçün bizim daha fədakar, daha namusla işləməyimiz tələb olunur.

Yerli təşkilatlarımız tamamilə inansınlar ki, mən, faşizmə qarşı mübarizədə tapşırılan bütün vəzifələri danışıqsız və yüksək keyfiyyətlə yerinə yetiricəyəm.

*Buqaçev,*
*gəmi maşinisti*
*“Qaspi bolşeviki” qəzeti, № 56 (1633),*
*18 iyul 1941-çi il*

### Donorlar sırasına daxil olun!

Bütün sovet vətəndaşları vahid bir arzu-öz patriotizm borcunu yerinə yetirmək, faşist azğınlara qarşı mübarizədə Qızıl Ordumuza hərtərəfli kömək etmək arzusu ilə coşurlar.

İgid qızıl əsgərlərə kömək etməyin ən dəyərli üsullarından biri də donorluqdur, yəni yaralılara köçürülmək üçün öz qanını könüllü surətdə verməkdir.

Qan köçürmənin əhəmiyyəti olduqca böyükdür. Qan köçürmə, çoxlu qan itirmiş və ağır vəziyyətdə olan yaralının həyatını xilas edə bilər. Ağ finlərə qarşı müharibə zamanı qanköçürmə Qızıl Ordunun və Hərbi-Dəniz Flotunun minlərcə döyüşçülərinin həyatını xilas etdi.

Bu gözəl müalicə üsulunun cəbhədə geniş surətdə tətbiq edilməsi üçün sağlam adamların-donorların qanı lazımdır. Sovet alimləri qanı konservləşdirmək, yəni qanı köçürmək üçün uzun zaman yararlı vəziyyətdə saxlamaq üsulunu öyrənmişlər. Konservləşdirilmiş qanı 3-4 həftə saxlamaq olar. Hazırda konservləşdirilmiş qan yüz və minlərlə kilometr uzaqlardan aparılır. Bunun sayəsində ən uzaq arxada olan donorlardan qan götürmək, bu qanı hər hansı transport vasitəsilə hərbi xəstaxanaya aparmaq və orada həmin qanı yaralı döyüşçüyə köçürmək olar.

Donorlar üçün öz qanlarının bir hissəsini vermək tamamilə zərərsizdir. Donordan hər dəfə bir–iki stakan qan götürülür, bu onun sağlamlığına və iş qabiliyyətinə qətiyyən təsir etmir. Çox qısa bir müddətdən-bir yarım iki həftədən sonra bədənin qan yaradan orqanları, verilmiş qanın yerini doldururlar. İkinci dəfə azı bir aydan sonra donordan qan götürülür.

Donorluq, vətənimizin azadlığını və şərəfini müdafiə etmək uğrunda vuruşan döyüşçülərə yoldaşlıq köməyinin ən nəcib patriotizm aktıdır. Təəccüblü deyildir ki, minlərcə sovet patriotları müharibənin birinci günlərindən donorluq məntəqələrinə və mərkəzi qanköçürmə stançiyalarına axışıb gəlirlər. Burada gecə keçənə qədər minlərcə yeni donorlar tibbi müayinədən keçirilir, qan götürülür, bu qan konservləşdirilir, bankalara doldurulur və dərhal cəbhəyə göndərilmək üçün hazırlanır.

Bir çox fəhlələr, qulluqçular, məktəblilər, evdar qadınlar, kolxozçu qadınlar, komandir və qızıl əsgər arvadları donor olmaq arzularını bildirirlər. Çox vaxt idarələrin, məktəblərin, fabrikaların və zavodların bütöv kollektivləri donor olmaqdan ötrü öz qanlarını yoxlatdırmağa gəlirlər. Donorlar deyirlər:

- Qanımız Qızıl Ordu döyüşçülərinin sağlamlığını bərpa etmək işinə kömək etdiyindən özümüzü xoşbəxt hesab edirik.

Cəbhəyə göndərilən qanla dolu bankalara bir çox donorların yapışdırdıqları kağızlar xüsusilə maraqlıdır. Donor Storonkina öz kağızında belə yazır: “Qanımı, döyüşçülərin və sevimli vətənimizin müdafiəçilərinin faydasına verdiyim üçün sevincimi ifadə etməyə söz tapa bilmirəm”.

Başqa bir kağızda belə yazılmışdır: “Əziz yoldaş! Mənim köməyim çox kiçikdir, lakin bizdə minlərcə qadınlar vardır ki, onlar bizim məğlubedilməz, qorxmaz döyüşçülərimizə öz qanlarını sevinclə verərlər.

Sizə qızğın salam göndəririk. N. Şekotkova”.

Azğın düşmənləri darmadağın etməkdə Qızıl Ordumuza kömək etmək arzusu ilə coşan alovlu sovet patriotlarının ürək sözləri belədir.

Yaralı qızıl əsgərlərə öz qanının bir hissəsini vermək istəyən hər bir adam, rayon səhiyyə şöbələri, rayon poliklinikaları və iri müəssisələr yanında olan qanköçürmə stançiyalarının donorluq məntəqələrinə müraciət etməlidir.

*“Qaspi bolşeviki” qəzeti, № 58 (1635),*
*25 iyul 1941-çi il*

### Minayığan gəmilərin döyüş əməliyyatı

Müharibənin ilk günlərindən etibarən minayığan gəmilərin ekipajları üçün qızğın iş dövrü başlandı. Onlar, düşmənin minalar düzdüyü yerlərdə, düşmənin sahil batareyalarının atəşi altında, faşist aeroplanlarının bombaları və pulemyot atəşi altında öz böyük və mühüm işlərini görürlər.

Bir neçə minayığan gəmi körfəzə çıxmışdı. Bir azdan sonra minaçı Çernuxa yoldaş gəmi tərəfindən mina tutulduğu haqqında baş leytenant Buzdin yoldaşa məlumat verdi.

Minayığan gəmilərin ətrafında minalar olduğu şübhəsiz idi.

Bu zaman, başda gedən gəminin yaxınlığında partlayış oldu. Yeni zamanda qarşı tərəfdən iki sualtı qayığının periskopları göründü.

- Bombaları hazır edin! – deyə minayığan gəmilərin komandirləri əmr etdilər və maşın teleqrafının dəstəsini tam sürətlə işə saldılar.

Minayığan gəmilər faşist sualtı qayıqlarının üzərinə atıldılar. Düşmən sualtı qayıqları periskoplarının suyu dalğalandıraraq yenicə gözdən itdikləri yerdə dərinlik bombalarının qüvvətli partlayışlardan qopan su fəvvarələri göyə qalxdı. Sualtı düşmənin zərbəsi dəf edilmişdir, lakin havadan qəhvəyi quzqunlar gəmilərə yaxınlaşmaqdadır.

Atəş vasitələrini idarə edən baş leytenant Jukov yoldaş zenitçiləri, hava hücumunu dəf etməyə sürətlə hazırlayır. Zenitçi Şkola yoldaş ilk sərrast atəşlər açır. Başqa gəmilərin zenit topları da dərhal ona qoşulur.

Şiddətli müdafiə atəşinə rast gələn faşistlər sıralarını pozaraq hərəsi bir tərəfə qaçır. Gəmilər yenidən mina yığmağa yola düşürlər.

Minayığan gəmilərin ekipajları flotun döyüş əməliyyatının təmin olunmasında iştirak edərək, mina yığmaqla, gəmiləri və transportları ötürməklə məşğul olaraq böyük mütəşəkkillik, yüksək döyüş təlimi və yaxşı dənizçi mətinliyi göstərirlər. Dənizçilər bu gəmilərin fədakar işini yüksək qiymətləndirirlər.

*A. İvanov,*
*Döyüşən Flot.*

### Komanda bütün qüvvəsini səfərbərliyə almışdır

Gəmimizin komandası dövlət daşıma planını müvəffəqiyyətlə yerinə yetirmək üçün bütün qüvvələrini səfərbərliyə almışdır. Komanda bu ilin aprel ayından etibarən yeni enerqiya ilə işləyir. Dəniz flotunun qabaqcılları sırasında olmaq üçün mübarizəsini möhkəmləndirmişdir.

Gəmi komandası sosializm yarışı və Staxanov hərəkatını genişləndirmişdir. Komandanın hər bir üzvü əmək məhsuldarlığını lazımi yüksəkliyə qaldırmağa çalışır, iş günündən tamamilə istifadə edir. Əmək intizamını möhkəmləndirməyə çalışır.

Sükançı Pavlov, Kopirkin, boçman Leviçov, baş mexanikin 1-ci köməkçisi Vodamorin, maşinist Səttarov və Çernikov yoldaşlar gəminin qabaqcıl staxanovçularındandır.

Bu yoldaşlar bütün tapşırıqları yerinə yetirmək işində nümunəlik göstərirlər, hər cür nöqsanları tezliklə ləğv edirlər. Gəminin bütün işlərində başqa komanda üzvlərinə yaxından kömək edirlər.

Bunların nəticəsində gəmi aprel ayından etibarən müntəzəm olaraq daşıma planını artıqlaması ilə yerinə yetirir. Yanacağın artıq sərf olunmasına imkan verilmir. Qazan təmizləmələri arasındakı müddət xeyli uzanmışdır. Hazırda komanda hər reysdə vaxta 10-12 saat qənaət edir. Bu yeni tədbirlər gəmi komandasının daşıma planını yerinə yetirmək uğrunda mübarizədə yeni-yeni müvəffəqiyyətlərini təmin edir.

İndi, bütün ölkə qerman faşistlərini azad xalqların qəddar düşməni kimi tezliklə aradan qaldırmaq üçün böyük vətən müharibəsi aparır. Millionlarla zəhmətkeş, habelə bütün bəşəriyyət, faşist barbarlarının hərəkətlərinə nifrət edir və onları məhv etmək üçün öz uçastoklarında fədakarcasına çalışır.

Komandamız da böyük məsələnin yerinə yetirilməsi üçün nə qədər məsuliyyət daşıdığını hiss etmişdir. Buna görə, komanda öz işini Stalin yoldaşın göstərişləri əsasında hərbi qaydada təşkil etmişdir. O, vətən müharibəsinin düşmən üzərinə qalibiyyəti üçün əmək məhsuldarlığını daha da yüksəltməyi, daxili intizamı həmişə möhkəm saxlamağı, lazım gələrsə, ələ silah alıb əmək cəbhəsindən döyüş cəbhəsinə keçməyi üzərinə götürmüşdür.

Biz, yalnız vədə vermək ilə işimizi qurtarmış hesab etmirik. Müharibə başlanan gündən, hərbi biliyimizi artırırıq, hava hücumundan müdafiə işinə yaxşı hazırlaşırıq. Daşıma planını yerinə yetirməkdə bir sıra yeni müvəffəqiyyətlər əldə etmişik.

Bütün bunlarla bərabər bəşəriyyətin ən murdar düşməni olan faşistləri məhv etmək işində Qızıl Orduya yaxından kömək etməyi qarşımıza ən mühüm vəzifə kimi qoymuşuq.

*İ. İ. Qolubev,*
*“A. Caparidze” gəmisinin kapitanı,*
*“Qaspi bolşeviki” qəzeti, № 59 (1636),*
*29 iyul 1941-çi il*

### Cəbhəyə küllü miqdarda metal verək!

Vəhşiləşmiş faşist quldurbaşı Hitler bandasının dinc xalqımızı zorla müharibəyə çəkməsi günündən vətən uğrunda, doğma Stalin uğrunda igid xalqımıza layiqli surətdə fədakarlıqla vuruşan igid oğullarımız müharibə meydanında düşmənə sarsıdıcı ölüm zərbələri endirmiş və endirirlər.

Sovet patriotları ana vətənin cəbhəsini hər zaman daha da möhkəmləndirmək arzusu ilə idarə və müəssisələrdə öz işlərini düşmənin darmadağın edilməsi üçün Qızıl Ordunun mənafeinə yönəltmişlər. Vətənimizin bu patriotları öz fədakar işləri ilə arxa cəbhədə qələbəni gücləndirirlər və bununla qanlı faşizmin ölümünü sürətləndirirlər.

Bu işdə Kaspi dənizçiləri böyük işlər görürlər. Hər istirahət günündə Kaspidə çalışan yüzlərcə dənizçi Baki portunun istehsalat uçastoklarında və gəmi təmir edən zavodlarda istifadəsiz metal qırıntılarını toplayıb dövlətə verməkdə aktiv iştirak edirlər. Onlar yaxşı bilirlər ki, istifadəsiz qalmış metal qırıntılarının hər tonu ana vətənimizə quldurcasına hücum etmiş yırtıcı qerman faşizmini məhv etmək üçün Qızıl Orduya, Hərbi-Dəniz Flotuna və Aviasiyamıza əlavə döyüş maşınları, güllə və silah verir.

- Hər şeyi cəbhə üçün, hər şeyi qerman faşizminin üzərində qələbə üçün!

Bu şüar altında sovet xalqının azğın qerman faşizminə qarşı böyük vətən müharibəsinə qalxdığı gündən Kaspi dənizçiləri dövlətə çoxlu metal toplayıb vermişlər. Axır günlərdə, avqust ayının 1-dən 3-nə kimi Baki portunun istehsalat uçastokunda işdən sonra 2.500 kiloqram rəngli metal və 50 ton qara metal toplanmışdır.

Bu işdə Kasptankersnabın işçilərindən A. Lukina, K. Krasnova, D. İvanova, Zalomov, Semyonov, Dubıkin və başqaları böyük aktivlik göstərmişlər.

Bunlardan başqa, Kasptexflotun gəmilərindən küllü miqdarda rəngli metal qırıntıları toplanmış və həmin gəmiçiliyin idarəsinə təhvil verilmişdir.

*B. Cəbizadə,*
*H. Məmmədov,*
*“Qaspi bolşeviki” qəzeti, № 61 (1638),*
*5 avqust 1941-çi il*

### Zavodun yeni kadrları

Zaqfederasiya adına zavodda çalışan fabrika-zavod təhsil məktəbinin 30 nəfərdən ibarət bir qruppa komsomolçuları və ittifaqda olmayan gəncləri zavodun əsas sexlərindən sayılan qazançılar sexində qazançılıq sənətini öyrənirlər.

Bu qruppanın rəhbəri komsomolçu Tofiq Məmmədov yoldaş gənclər arasında birinci staxanovçu olmaqla öz sənətini yaxşı sevir, ona tez və möhkəm yiyələnməyə tələsir. O, hər gün sexdə əmək məhsuldarlığını artıraraq, verilən istehsalat tapşırıqlarını həmişə vaxtından qabaq artıqlaması ilə yerinə yetirir. Məmmədov yoldaş özü istehsalatda möhkəm əmək intizamı yaratmaqla, onunla birlikdə işləyən gənc yoldaşlarını da intizamlı olmağa çağırır.

Qruppanın komsomol təşkilatçısı Məmməd Məmmədov yoldaş da öz yoldaşı Tofiq kmi çalışır.

O, bütün işlərini hərbi qaydada yenidən qurmuşdur. Məmmədov qruppanın içərisində hər gün aqitasiya-propaqanda işləri aparır. O, qruppanın bütün gənclərini yanğından mühafizə dəstələrində və hərbi yürüşlərdə iştirak etməyə cəlb etmişdir.

30 nəfərdən ibarət olan bu qruppanın gəncləri alçaq qerman faşizminin başını əzmək üçün Qızıl Orduya gedən köhnə yoldaşlarını da əvəz edirlər. Onlar hər gün 8 saat və lazım gələndə artıq işləyərək, hər bir tapşırığı vaxtından tez yerinə yetirirlər.

*M. A. Orucov,*
*“Qaspi bolşeviki” qəzeti, № 66 (1643),*
*22 avqust 1941-çi il*

### Sərrast atıcılar, pulemyotçular hazırlayaq!

Qüdrətli sovet ölkəsinin qəhrəman xalqı dahi rəhbərimiz Stalin yoldaşın çağırışına patriotizm ruhu ilə səs verərək, hərbi biliyə məharətlə yiyələnir.

“SSRİ vətəndaşlarının ümumi məcburi hərbi təlimi haqqında” SSRİ Dövlət Müdafiə Komiteti qərarının çox böyük tarixi əhəmiyyəti vardır. Bu qərar silah tutmaq bacarığı olan sovet adamlarının hərbi təlim keçməsinə, pulemyotun hissələrini öyrənməyə, hərbi sənətə işgüzar surətdə yiyələnməyə, sevimli vətənimizi qəddar düşməndən müdafiəyə hər zaman hazır olmağa çağıran mübariz əmrdir.

Məhz buna görədir ki, Kaspi dənizçiləri bütün sovet xalqı ilə birlikdə oktyabr ayının 1-dən başlayaraq, ümumi məcburi hərbi təlimi müəyyən saatla keçirlər.

Təlimin birinci günündən başlayaraq Parkommuna adına zavodun və Kaspflot gəmiçilik idarəsinin işçiləri xalq qoşunu sıralarında döyüş təlimində mütəşəkkillik nümunələri göstərmişlər.

Zavodun elektriklərindən Rilpçikov və başqaları döyüş silahını maraqla öyrənir və sərrast güllə atmağı yaxşı mənimsəmişlər.

Zavodun kollketivi “HKHM” nişanına da müvəffəqiyyətlə norma verir. Hazırda zavodda özünümüdafiə qruppaları və şəfəqqət bacıları dərnəkləri yaradılmışdır. Bu dərnəklərdə rayon Osoaviaxim sovetinin instruktorları və tibb işçiləri müntəzəm surətdə lekçiya oxuyurlar. “SMH” nişanına norma vermək üçün dərnəyə 50 nəfər adam cəlb olunmuşdur.

Zaqfederaçiya adına zavodda komsomolçulardan Cənumov, Dubin, Yeremin və başqaları hərbi təlimdə böyük həvəslə iştirak edirlər.

Zavodda təşkil olunmuş sanitar dəstəsində Nina Pavlova, Mariya Qodova və başqaları “HKHM”, “SMH” nişanlarına müvəffəqiyyətlə norma verirlər.

Kaspinin sahil təşkilatlarında olduğu kimi gəmilərdə çalışanlarda da döyüş silahına məharətlə yiyələnmək, “HKHM” və “SMH” nişanlarına norma vermək həvəsi gündən-günə çoxalır. N. gəmisində ekipaj üzvləri üçün baş mexanik Tkaçov yoldaşın rəhbərliyi altında pulemyotun hissələrini öyrənən dərnək təşkil olunmuşdur. Bundan başqa bu gəmidə “HKHM” nişanına norma verməkdə ekipaj üzvləri tamamilə cəlb olunmuşdur.

Sıra təlimində hər bir dənizçi hərbi intizama olduğu kimi daha möhkəm rəayət etməlidirlər. Dənzçilərimiz hərbi təlim proqrammasının yaxşı mənimsənilməsində sosializm yarışının təşəbbüsçüsü olmalıdırlar.

*“Qaspi bolşeviki” qəzeti, № 79 (1656),*
*7 oktyabr 1941-çi il*

# "VİKİNQ TRAİN" LAYİHƏSİNİN GƏLƏCƏK PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

***Bakıda "Vikinq train" layihəsinin gələcək perspektivləri müzakirə olunub.***

"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyindən bildirilib ki, müzakirələr sentyabrın 15-də "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətində Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas ilə keçirilən görüşdə aparılıb.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov Azərbaycan Dəmir Yolunda reallaşdırılan layihələr, qarşıda duran perspektiv vəzifələr haqqında ətraflı məlumat verib. Görüşdə Azərbaycanla Litva arasında əməkdaşlıq əlaqələrinin və "Vikinq train" layihəsinin gələcək perspektivləri müzakirə olunub.

Səfir Valdas Lastauskas "Azərbaycan Dəmir Yolları" QSC-də bütün sahələrində həyata keçirilən genişmiqyaslı islahatları yüksək qiymətləndirib.





İkitərəfli əməkdaşlığın bundan sonra daha da genişləndirilməsi qərara alınıb.

Qeyd edək ki, "Viking train" layihəsi 3 ölkə - Litva, Belarus və Ukraynanı əhatə etməklə yüklərin Baltik dənizi hövzəsindən Qara dəniz hövzəsinə daşınmasını əhatə edir. Azərbaycanın bu layihədə iştirakı daha geniş perspektivlər vəd edir. Belə ki, "Viking train" layihəsi Xəzər dənizi hövzəsinə çıxış əldə etməklə, bundan sonra həm Şərq istiqamətində, (Mərkəzi Asiya və Çin) həm də Cənub istiqamətində (İran körfəzi və Hindistan) və əks istiqamətdə yüklərin daşınmasına imkan yaradacaq. Şimali Avropa (Baltikyanı, Skandinaviya və sair) dövlətlərinin İran, Pakistan, Hindistan və Ərəb ölkələri ilə ticarət dövriyyəsi kifayət qədər yüksək olduğundan Azərbaycan tranzit ölkə kimi bundan bəhrələnəcək.

## Müxtəlif məsələlər üzrə fikir mübadiləsi aparılıb

***Azərbaycan Respublikasının Hərbi Dəniz Qüvvələri komandanının rəhbərlik etdiyi nümayəndə heyəti Koreya Respublikasının Hərbi Dəniz Qüvvələri baş komandanının dəvəti ilə bu ölkəyə işçi səfər edib.***







Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, səfər zamanı Hərbi Dəniz Qüvvələri komandanının vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Hicran Rüstəmzadə Koreya Respublikasının Hərbi Dəniz Qüvvələrinin baş komandanı ilə görüşüb.

Görüşdə iki ölkənin hərbi dəniz qüvvələri arasında əməkdaşlıq məsələləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb və müxtəlif məsələlər üzrə fikir mübadiləsi aparılıb.

Səfər zamanı 1-ci dərəcəli kapitan H.Rüstəmzadə Hərbi Dəniz Akademiyasının su-qayıq donanmasının gəmi inşaat müəssisəsində və bir sıra başqa hərbi obyektlərdə olub.

## Yeni gəmi 150 sərnişin üçün nəzərdə tutulub

***Avstraliyanın "Austal Limited" gəmiqayırma şirkəti "Rəşid Behbudov" adlı yeni 70 metrlik katamaran tipli gəmini sifarişçi "Caspian Marine Services" (CMS) şirkətinə təhvil verib.***

"Austal Limited" şirkəti xəbər verir ki, gəmi 150 sərnişin üçün nəzərdə tutulub.

Qeyd edək ki, gəminin tikintisinə dair müqavilə 2015-ci ilin iyununda imzalanıb. Tikinti işlərinə 2015-ci ilin oktyabrında başlanılıb. Müqavilənin dəyəri 34 milyon dollar təşkil edib.




# BATUMİDƏ UKRAYNA, GÜRCÜSTAN, QAZAXISTAN VƏ AZƏRBAYCANI BÖYÜK İPƏK YOLUNDA BİRLƏŞDİRƏN SƏNƏD İMZALANIB

***Ukrayna İnfrastruktur Nazirliyinin saytı xəbər verir ki, Ukrayna və Gürcüstan hökumətlərinin nümayəndələri Batumidə keçirilən Beynəlxalq Dəniz Forumu çərçivəsində hər iki ölkənin dəniz limanı vasitəsilə birbaşa beynəlxalq dəmir yolu-bərə yollarının təşkili haqqında saziş imzalayıb. Bu, nəqliyyat sahəsində Ukrayna-Gürcüstan dövlətlərarası beynəlxalq əlaqələrin inkişafına və fəallaşdırılmasına kömək edəcək.***



Saziş Ukrayna, Gürcüstan, Qazaxıstan və Azərbaycanı Böyük İpək Yolunda birləşdirən mühüm sənəddir. Bu təşəbbüs böyük perspektivə malikdir. Məlumatda bildirilir ki, ölkələrimiz logistikanı sadələşdirmək, nəqliyyatı daha ucuz etmək, ən başlıcası isə malların çatdırılma sürətini artırmaq və bununla da biznes üçün maksimim komfort yaratmaq üçün böyük qüvvə sərf ediblər.

Hazırda bazar iştirakçıları üçün yüklərin çatdırılma sürəti çatdırılmanın qiymətindən daha çox önəm daşıyır və malların iki-üç ay deyil, 9-15 gün ərzində çatdırılması üçün bütün şirkətlər əlavə xərclər ödəməyə hazırdırlar. Nazirliyin məlumatında qeyd edilir ki, Ukrayna malların Çindən gətirilməsini 9-10 sutkayadək azaltmaq vəzifəsini qarşısına qoyub.

Ukrayna 2016-cı ilin sonunadək Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin iştirakçı ölkələri ilə danışıqlar əsnasında daşımalarda birbaşa tarifi 15 faiz azaltmağı, habelə Ukraynadan Çinə müvafiq marşrut üzrə malların çatdırılma vaxtını 10 faiz azaltmağı nəzərdə tutur.

Ukraynadan Çinə ilk eksperimental yük qatarı Yeni İpək Yolu marşrutu üzrə yanvarın 15-də buraxılıb.

## "Türk axını"nın dənizdən keçəcək hissəsinin inşası üçün Türkiyədən ilk icazəni alıb

***Rusiyanın enerji nəhəngi "Gazprom" şirkəti "Türk axını" qaz boru kəmərinin (Turkish Stream) dənizdən keçəcək hissəsinin inşası üçün diplomatik kanallar vasitəsilə Türkiyədən ilk icazəni alıb.***




Bu barədə "Gazprom"dan edilən şərhdə deyilir. "Gazprom"un idarə heyətinin sədri Aleksey Miller "Türk axını" layihəsinin ilk mərhələsində türkiyəli səlahiyyətlilər ilə birgə işi davam etdirdiklərini deyib.

Qeyd edək ki "Türk axını" üzrə ilk boru kəmərinin tikintisinə 2019-cu ilin ikinci yarısında başlanılacağı planlaşdırılır. "Türk axını" ilə Rusiya qazının Türkiyədən keçməklə Avropaya çatdırılması nəzərdə tutulur. Kəmərlə 16 milyard kubmetr qazın Avropanın, qalan hissəsinin isə Türkiyənin daxili tələbatının ödənilməsi üçün istifadə edilməsi planlaşdırılır. Layihə üzrə iki boru kəmərinin tikilməsi nəzərdə tutulur.

## "Mistral" tipli ikinci helikopterdaşıyıcısı təhvil verilib

***Fransanın Sen-Nazar şəhərində "Mistral" tipli ikinci helikopterdaşıyıcısı təntənəli surətdə Misirə təhvil verilib. Misir KİV-ləri xəbər verir ki, sabiq prezident Ənvər Sədatın adı verilən helikopterdaşıyıcı yaxın günlərdə Fransa limanını tərk edib Misirin şimal paytaxtına – İsgəndəriyyə limanına gələcək.***



Təntənəli mərasimdə iştirak edən Misir rəsmi nümayəndə heyətinin rəhbəri, ölkənin Hərbi Dəniz Donanmasının komandanı Üsamə Rabia bildirib ki, Yaxın Şərqdəki müxtəlif təhdidlər öz resurslarının müdafiəsi və milli təhlükəsizliyinin təmin olunması üçün Misiri zəruri vasitələr əldə etməyə sövq edir. Komandanın sözlərinə görə, təhlükəsizlik Misirə tərəqqi yolunda sürətli templərlə irəliləmək və bütün sahələrdə ölkənin liderliyini təsdiqləmək imkanı verəcək.

Xatırladaq ki, "Mistral" tipli ilk helikopterdaşıyıcısı bu il iyunun 23-də İsgəndəriyyə sahillərinə gəlib çatıb.

***Asya Hacızadə***

# "YELKƏNLİ YAY MƏKTƏBİ-2016"NIN BAĞLANIŞI OLUB

***Sentyabrın 10-da Azərbaycan Yelkənli İdman Federasiyası (AYİF) tərəfindən təşkil olunmuş "Yay məktəbi-2016"nın bağlanış mərasimi keçirilib.***

Tədbirdə Federasiyanın rəhbərliyi, beynəlxalq dərəcəli mütəxəssislər, idmançılar və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

AYİF-in prezidenti Qüdrət Qurbanov çıxışında ölkəmizdə idmana göstərilən diqqət və qayğıdan, federasiyanın yaranmasından və inkişaf tarixindən danışıb. Bildirib ki, Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında Azərbaycanın uğurları və idmançıların sayına görə ən çox medal qazanan ölkələr arasında birinci yeri tutması idmana göstərilən diqqət və qayğının parlaq göstəricisidir.

Federasiyasının prezidenti diqqətə çatdırıb ki, yelkənli idman növü Azərbaycanda əvvəllər geniş yayılsa da, sonra diqqətdən kənarda qalıb. Hazırda dövlətimizin başçısının idmana göstərdiyi diqqət və qayğı nəticəsində idmanın bu növü yenidən inkişaf etməyə başlayıb. Yelkənli idmanın kütləviləşməsi və yayılması məqsədilə ötən ildən başlayaraq Bakıda "Yay məktəbi" təşkil olunur.










Sonra AYİF-in xətti ilə Azərbaycanda fəaliyyətə başlayan beynəlxalq mütəxəssislər – Burcu Alqon Corcanni, Seyhun Yıldız və Tuğçe Subaşı gələcəkdə iştirak edəcəkləri beynəlxalq yarışlar barədə ətraflı məlumat veriblər.

Tədbirdə "Yay məktəbi"nin iştirakçılarına, həmçinin ölkəmizdə ilk dəfə təşkil olunmuş yelkənin "Optimist" sinfi üzrə Federasiya Kuboku yarışlarının qaliblərinə medal, kubok və müvafiq mükafatlar verilib.

Daha sonra ölkəmizdə yelkənli idmanın geniş təbliği və idmanın bu növünə marağın artırılması məqsədilə "Media müsabiqəsi-2016" haqqında təqdimat olub. Təqdimatda ölkəmizdə sağlam həyat tərzinin təşviqi və cəmiyyətdə idmana marağın daha da artırılmasında KİV-in rolundan və əhəmiyyətindən bəhs olunub. Eləcə də bu prosesdə iştirak edən mətbuat nümayəndələrinə və tərəfdaşlara mükafatlar təqdim edilib.

## Gəminin kapitanı həlak olub, iki heyət üzvü isə yaralanıb

***Yaponiyanın Vakayama prefekturası sahillərində Cənubi Koreya bayrağı altında üzən kiçik tankerdə partlayış baş verib. Bu barədə Yaponiya Sahil Mühafizəsi Xidməti məlumat yayıb.***



Xidmətin məlumatına görə, "Eiwa Maru 3" adlı gəminin kapitanı həlak olub, daha iki heyət üzvü yaralanıb.

İlkin məlumatlara görə, gəmidə partlayış göyərtədə qaynaq işi aparılarkən baş verib. Hazırda Sahil Mühafizəsi hadisənin səbəblərini araşdırır.

Kimyəvi məhsullar daşıyan tankerin su tutumu 740 tona bərabərdir. Hadisə zamanı gəminin göyərtəsində olan yük barədə məlumat verilmir.

# DƏNİZ MÖVZUSUNDA İKİTƏRƏFLİ MÜZAKİRƏLƏR APARIBLAR

***Yaponiyanın və Çinin rəsmi nümayəndələri arasında dəniz mövzusunda iki gün davam edən müzakirələr sentyabrın 15-də Hiroşimada başa çatıb.***

Həmin gün tərəflər bir gün əvvəl başlamış müzakirələri davam etdirərək dənizdə və havada gözlənilməz qarşıdurmanı aradan qaldırmaq üçün əlaqə mexanizminin yaradılması barədə danışıqlar aparıblar.

NHK televiziya kanalının Yaponiya hökumətindəki mənbələrə istinadla yaydığı məlumata görə, tərəflər müxtəlif problemlər ətrafında, o cümlədən həmin mexanizmin tətbiqinin vaxtı barədə müzakirələr aparıblar.




Həmin mənbələrin bildirdiyinə görə, tərəflər Şərqi Çin dənizindəki təbii qaz yataqlarından hasilatla bağlı razılaşmada irəliləyişə nail ola bilməyiblər. Yaponiya nümayəndə heyəti Çin tərəfini dənizdə qaz yataqlarının birgə mənimsənilməsi barədə razılıq əldə olunması üçün müzakirələri bərpa etməyə çağırıb. Həmin danışıqlar Çin tərəfinin dənizdə birtərəfli qaydada apardığı layihələrlə bağlı dayanıb.

Çin tərəfi, ümumiyyətlə, birgə fəaliyyətlə bağlı razılaşmanın əleyhinə çıxış edir.

***Vüqar Ağayev***

## "G20" biznes jurnalının sentyabr nüsxəsində Bakı limanından bəhs edilib

***"G20" biznes jurnalının sentyabr nüsxəsi Bakı limanı və onun Avrasiyada nəhəng ticarət və logistika qovşağı olmasından bəhs edir.***




Məqalədə Qədim İpək Yolunun ən əlverişli mövqeyində, Azərbaycan ərazisinin bir sıra vacib karvansaralara və iri regional ticarət mərkəzlərinə ev sahibliyi etməsi göstərilir. Avropa və Asiyanın strateji kəsişməsində, Çin, Türkiyə, İran, Rusiya kimi bazarların yaxınlığında yerləşən Azərbaycan və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Avrasiyanın ən böyük ticarət və logistika "hub"ı olmağa hazırdır.

Qeyd edək ki, "G20" biznes jurnalı Beynəlxalq Ticarət Palatası G20 rəhbərinin məsləhətçi qrupunun rəsmi nəşridir və hər il G20 və B20 sammitlərində təqdim edilir.



## Ölkə əhalisinin sayı 0,6 faiz artıb

***İlin əvvəlindən ölkə əhalisinin sayı 59,8 min nəfər və ya 0,6 faiz artaraq 2016-cı il avqustun 1-nə 9765,4 min nəfərə çatıb.***

Dövlət Statistika Komitəsindən bildiriblər ki, əhalinin sıxlığı bir kvadratkilometrə 113 nəfər olub. Ölkə əhalisinin ümumi sayından 53,1 faizi şəhər, 46,9 faizi kənd sakinlərinin, 49,8 faizi kişilərin, 50,2 faizi qadınların payına və hər 1000 kişiyə isə hazırda 1007 nəfər qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-iyul ayları ərzində ölkədə 91,5 min, yaxud hər gün orta hesabla 430 doğulan körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 16,3 təşkil edib. Doğulan körpələrin 53,4 faizi oğlan, 46,6 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrin 1612-si əkiz, 45-i isə üçəm doğulub.



## Festival zamanı azı 16 nəfər suda boğulub

***Hindistanın Maharaştra ştatında Qaneşa ilahəsi festivalının son günündə mərasim iştirakçıları ilahənin gil fiqurlarını suya batırarkən azı 16 nəfər həyatını itirib.***

Yerli xalq tərəfindən müdriklik və firavanlıq ilahəsi Qaneşaya həsr edilən festival bu il sentyabrın 5-də başlayıb. Ənənəyə əsasən, insanlar ilahənin gil fiqurlarını (fil başlı insan təsviri) alaraq bir neçə gün onlara ibadət edir, sonradan isə həmin fiqurları suda həll olunana qədər çay və ya göldə batırırlar.

Ölüm halları festivalın daha aktiv qeyd olunduğu Maharaştra ştatında ilahənin gil fiqurlarının suya batırılması mərasimində baş verib.



## Alimlər dünya iqlimi üçün yosunun faydalı olduğunu bildiriblər

***Danimarka alimləri dünya iqliminə dəniz yosununun təsirini öyrənmək üçün tədqiqat aparıblar.***

medikforum.ru saytı xəbər verir ki, tədqiqatın nəticələrinə əsasən, bu bitkilər iqlim üçün əvvəllər güman olunduğundan daha vacibdir. Bir neçə ilə ərzində aparılan araşdırma nəticəsində məlum olub ki, məhz yosunlar su ekosistemlərində karbon qazının miqdarını tənzimləyir və bu funksiyası ilə qlobal istiləşmə üçün maneələr yaradır.

Alimlərin sözlərinə görə, yosunlar su altında olan meşələrə bənzəyir. Bu bitkilər karbon qazının miqdarını tənzimləməklə onun azalmasına kömək edir. Bu tapıntı qlobal istiləşməyə bitkilərin təsirinin öyrənilməsi məsələsində alimlərə irəliyə addım atmağa imkan verəcək.

# ELMİ FƏALİYYƏTİNİN ƏHATƏ DAİRƏSİ GENİŞ VƏ ÇOXŞAXƏLİ İDİ

***Sentyabrın 19-u XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın xatirə günü idi.***



Azərbaycan şərqşünaslığında yeni dövr ərəb ədəbiyyatının ilk tədqiqatçısı A.İmanquliyeva özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə, yeni bir yol açıb.

1962-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şərqşünaslıq fakültəsini bitirən Aida İmanquliyeva 1966-cı ildə namizədlik, 1989-cu ildə doktorluq dissertasiyasını müdafiə edib. A.İmanquliyeva Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda kiçik elmi işçidən bu elm ocağının direktoru vəzifəsinədək yüksəlib. O, keçmiş SSRİ-də Şərqşünaslıq Cəmiyyəti rəyasət heyətinin, Şərq Ədəbiyyatının Tədqiqi üzrə Əlaqələndirmə Şurasının üzvü olub.

Aida xanım İmanquliyevanın elmi fəaliyyətinin əhatə dairəsi geniş və çoxşaxəli idi. Onun elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunub. Bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır.

Bu gün dünyanın bütün dövlətləri, o cümlədən də ərəb Şərqi ilə geniş əlaqələr yaradıldığı bir vaxtda, bu ölkələrin həyatının hər bir sahəsi ilə daha yaxından tanış olmağa ehtiyac duyulur. Bu ehtiyacı ödəməkdə Aida xanım İmanquliyevanın elmi əsərlərinin özünəməxsus yeri və əhəmiyyəti vardır.

Üç monoqrafiya ("Mixail Nuaymə və "Qələmlər birliyi", Moskva, 1975; "Cübran Xəlil Cübran", Bakı, 1975; "Yeni ərəb ədəbiyyatının korifeyləri", Bakı, 1991) və 70-dən artıq elmi məqalənin müəllifi olan A.İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru olub.

Tədqiqatçıların haqlı olaraq qeyd etdikləri kimi, Aida xanım İmanquliyevanın adı müasir şəraitdə ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən görkəmli tədqiqatçısı kimi tarixə əbədi həkk olunub. Bu faktı nəinki Azərbaycan və keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları, ərəblərin özləri belə, etiraf edirlər.

Aida İmanquliyevanın doğulduğu, böyüdüyü və gəlin gəldiyi iki ailənin Azərbaycan xalqının ədəbi-mədəni fikrində öz yeri vardır. Belə bir mühit Aida xanımın ədəbi-elmi yaradıcılıqla hərtərəfli məşğul olması üçün mənəvi zəmin yaradıb.

Aida xanımın atası Nəsir İmanquliyev Azərbaycanın çox məşhur mətbuat nümayəndələrindən biri olub. Nəsir müəllim uzun illər "Bakı" və "Baku" qəzetlərinin redaktoru işləyib. Aida xanım görkəmli Azərbaycan yazıçısı, alim və pedaqoq Mir Cəlal Paşayevin ocağına gəlin köçüb.

Boya-başa çatdığı mötəbər ziyalı mühitinin məlum təsirinin nəticəsidir ki, Aida İmanquliyevanın həyat və yaradıcılığı milli ziyalı qadınlar içərisində bənzərsizliyi, yüksək məziyyətləri, nəcib xüsusiyyətləri ilə seçilirdi.

Aida xanımın xatirəsi ürəklərdə əbədi yaşayır. Əsərləri dönə-dönə oxunur, təhlil və tədqiq edilir, tərcümə olunur, yenidən işıq üzü görür. Elmi irsi araşdırılır və təbliğ edilir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını qoruyub saxlayır. Tam əminliklə demək olar ki, gənc nəsillər də görkəmli şərqşünas alim Aida İmanquliyevanın əsərlərinə daim müraciət edir, onu həmişə minnətdarlıqla xatırlayır.

# Xəzər qazının Mərkəzi Avropaya nəql edilməsi üçün qaz kəməri tikintisi barədə saziş imzalanıb

***Budapeştdə Avstriya, Bolqarıstan, Macarıstan, Rumıniya və Avropa İttifaqı arasında qaz kəmərinin Rumıniya hissəsinin tikintisi barədə saziş imzalanıb.***




Bu barədə "Euronews" agentliyinin "Mərkəzi və Cənubi Avropada beynəlxalq qaz kəməri real cizgilər kəsb edir" adlı materialında məlumat verilir.

Məqsəd - bu ölkələrin qaz nəqli sistemlərini əlaqələndirməkdir ki, Bolqarıstandan və Rumıniyadan keçməklə Avropanın Cənubuna nəql edilən Xəzər qazı Mərkəzi Avropaya çatdırıla bilsin.

İqlim və energetika məsələləri üzrə komissar Migel Kanete deyib: "Biz şəbəkə yaradırıq. Bu, ənənəvi böyük qaz kəməri yox, kiçik qaz kəmərləri şəbəkəsi olacaq və cənubdan şərqə və qərbə gələn axınları bölüşdürməyə, beləliklə enerji mənbələrini şaxələndirməyə və qiyməti azaltmağa imkan verəcək.

Qaz kəmərinin Rumıniya hissəsinin uzunluğu 550 km, ümumi dəyəri isə təqribən 560 milyon avro olacaq. Layihənin maliyyələşdirilməsində Avropa İttifaqı fəal iştirak edir.

Rumıniyanın energetika naziri Viktor Vlad Qriqoresku deyib: "Bu qaz kəməri Avropa İttifaqı tərəfindən ümumi marağın təmin edilməsi mexanizmi deyilən üsulla ciddi maliyyə dəstəyi alıb. Aİ-nin sərmayəsi təxminən 180 milyon avroya bərabərdir. Biz isə 220 milyon avro yatıracağıq. Bu, enerji təhlükəsizliyindən əlavə, həm də ÜDM-i artırmağa və yeni iş yerləri açmağa imkan verəcək".

Layihə yeni tərəfdaşların qoşulması üçün açıqdır: Budapeştdə Yunanıstan və Ukrayna da niyyət deklarasiyası imzalayıblar.

Xatırladaq ki, bu il iyul ayında Bakıda SOCAR ilə Rumıniyanın "Transgaz" şirkəti arasında Qarşılıqlı Anlaşma Memorandumu imzalanıb. Həmin sənədə əsasən, təbii qazın nəqli sahəsində əməkdaşlığın möhkəmləndirilməsi, Azərbaycan və Xəzər dənizi regionundan qaz tədarükü hesabına qaz tranziti və paylanması sahəsində Rumıniyanın potensialından istifadə olunması imkanlarının, habelə ümumi maraq doğuran potensial perspektivlərin araşdırılması, uzunmüddətli sazişlər və ya spot-sövdələşmələr əsasında, o cümlədən AGRİ (Azərbaycan-Gürcüstan-Rumıniya interkonnrektor) layihəsi çərçivəsində maye qazın qəbulu üzrə potensial terminallar da daxil olmaqla, Rumıniya bazarına təbii və maye qaz tədarükü və treydinqi sahəsində əməkdaşlıq imkanlarının birgə öyrənilməsi kimi məsələlər nəzərdə tutulur.

# KÜRÜN QƏDRİNİ BİLƏK

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN), IDEA İctimai Birliyi və dəniz ətraf mühiti üzrə ixtisaslaşmış dünya şöhrətli "Blue Marine Foundation" (BMF) təşkilatı ilə birgə xüsusi əhəmiyyətə malik içməli su mənbəyi olan və suvarma əhəmiyyətli Kür çayının sahil ərazilərində "Təmiz Kür" adlı təmizlik kampaniyasına başlayıb.***






ETSN-in mətbuat xidmətindən verilən məlumata görə, kampaniyaya Salyan şəhərinin və Sabirabad rayonunun Məmişlər kəndinin Kür çayı sahillərində start verilib. Keçirilən aksiyada nazirliyin əməkdaşları və IDEA İctimai Birliyinin könüllüləri ilə birgə yüzlərlə ictimaiyyət və müxtəlif QHT nümayəndələri, o cümlədən əsasən yerli gənclərdən ibarət könüllülər dəstəsi iştirak edib.

Kampaniyanın əsas məqsədi Kür çayı sahillərinin tullantılarla çirkləndirilməsinin qarşısının alınması, o cümlədən bu ərazilərdə təmizliyə riayət olunması, xüsusilə atılan məişət tullantılarının Kür çayı və nəticə etibarilə Xəzər bioresurslarına vurduğu zərərlərlə bağlı ictimaiyyətin maarifləndirilməsidir.

Nazirliyin aidiyyəti qurumları tərəfindən tullantıların idarə olunması istiqamətində mütəmadi olaraq monitorinqlər, reydlər keçirilir, fiziki və hüquqi şəxslər qanunamüvafiq qaydada cərimə edilir. Lakin bu, mövcud problemlərin aradan qaldırılmasına kifayət etmir. Məlumdur ki, ətraf mühit problemlərinin aradan qaldırılmasında normativ və institusional tədbirlərlə yanaşı, ictimai aksiya və maarifləndirmə fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar ETSN İDEA İctimai Birliyi ilə birgə ictimaiyyəti, o cümlədən çay kənarına yaxın yaşayış məskənlərinin sakinlərini Kür çayını çirkləndirməməyə və canlılara həyat verən "Ana" dediyimiz Kürün sahillərini təmiz saxlamaqla onu qorumağa çağırır. ETSN və İDEA İctimai Birliyi ictimaiyyət nümayəndələrinin müxtəlif təbəqələrinin bu kampaniyaya qoşulmasını yüksək qiymətləndirir. Bu istiqamətdə tədbirlər Kür çayının sahilboyu yaşayış ərazilərində məskunlaşan əhali üçün mütəmadi olaraq davam etdiriləcək.

Məlumatda bildirilir ki, Qafqaz regionunda ən böyük su hövzəsi olan Kür çayı ölkəmizin əsas su mənbəyidir. Min illərdir Kür çayı ətrafında məskunlaşmış əhali çayın suyundan həm təsərrüfat sahələrinin suvarılması, həm də içməli su kimi istifadə edir. Amma təəssüf ki, bu nemət hesab etdiyimiz suyun qədrini bilməyən bəzi insanlar çayın sahillərinə məişət tullantıları atmaqla onu daha da çirkləndirir, infeksion xəstəliklərinin yayılması üçün münbit şərait yaradırlar. Su mənbələrinin çirklənməsi suyu əhalinin içməsi və təsərrüfat işlərində istifadəsi üçün yararsız etməklə bərabər, həmin hövzələrdəki biomühitə də olduqca mənfi təsir göstərir.

Baş Dövlət Yol Polisi İdarəsi

## Təhlükəsizlik qaydalarına ciddi riayət edin

***Baş Dövlət Yol Polisi İdarəsi paytaxt sakinlərinə müraciət edib.***

Yeni dərs ilinin başlanması ilə əlaqədar paytaxtda nəqliyyat vasitələri ilə yanaşı, piyadaların da hərəkətində intensivlik xeyli artıb.

Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsindən bildiriblər ki, bunu nəzərə alaraq qurum hərəkət iştirakçılarını, xüsusilə də piyadaları küçə və yollarda təhlükəsizlik qaydalarına ciddi riayət etməyə və öz nümunəvi davranışları ilə uşaqlara, yeniyetmələrə örnək olmağa çağırır.

Müraciətdə deyilir: "Təəssüflə qeyd etməliyik ki, hər il paytaxtın avtomobil yollarında baş verən yol-nəqliyyat hadisələrinin çoxu - təxminən 55 faizi piyadaların vurulması ilə bağlı olur. Bu qəzaların əksəriyyəti məhz piyadaların onlar üçün müəyyən olunmayan yerlərdən keçmələri səbəbindən baş verir. Baxmayaraq ki, təkcə paytaxt ərazisində 40-dan çox yeraltı-yerüstü, bir o qədər nizamlanan və yüzlərlə nizamlanmayan piyada keçidləri mövcuddur, yenə də piyadalarımız kütləvi şəkildə bu qaydaları pozurlar. Nəticədə əziyyət çəkən, xəsarət alan və bəzən dünyasını dəyişənlər də məhz piyadaların özləri olurlar".

Qeyd olunub ki, bəziləri yol polisini sürücülərlə müqayisədə piyadalara qarşı zəif mübarizə aparmaqda suçlayırlar. Amma il ərzində 140 minədək piyadanın məsuliyyətə cəlb edilməsi faktı bu fikirlərin tam əksini sübut edir. Sürücülərin yol verdikləri qayda pozuntularının 60-70 faizi xüsusi texniki vasitələrin köməyi ilə aşkarlanır.

"Aparılan təhlillər, ictimai qurumlar, qeyri-hökumət təşkilatları ilə birgə keçirilən sorğular da göstərir ki, qaydanı pozan hərəkət iştirakçıları arasında müxtəlif yaş həddində olan insanlar var. Onların böyük əksəriyyətinin bu hərəkətlə bağlı gətirdikləri arqument ya tələsmək, yaxud da diqqət yetirməməkdir. Narahatedici hallardan biri də odur ki, belə piyadaların əksəriyyətinin yanında azyaşlı uşaqlar olur. Bu isə uşaqlarda kiçik vaxtlarından yol qaydalarına biganəlik kimi xoşagəlməz vərdişlərin formalaşmasına səbəb olur.

Hörmətli hərəkət iştirakçıları, bir daha yaşından, həyatda tutduğu mövqedən asılı olmayaraq, hər bir kəsi yol hərəkəti qaydalarına ciddi riayət etməyə dəvət edir, bu qaydaların insan həyatının qorunması üçün nə qədər vacib və əhəmiyyətli olmasına diqqət yetirməyə çağırırıq. Xahiş edirik ki, özünüzün, doğmalarınızın həyatının qorunması üçün bu çağırışımıza düşünülmüş şəkildə yanaşasınız", - deyə müraciətdə qeyd edilib.

## Dənizin dibindən Bizans dövrünə aid qablar tapılıb



***Türkiyə arxeoloqları indiki Antalya şəhərində XII əsrdə qəzaya uğramış Bizans gəmisindən dənizin dərinliklərinə düşüb qalmış yüzlərlə naxışlı saxsı qab və onların qalıqlarını aşkarlayıblar.***

planet-today. ru saytı xəbər verir ki, əl işləmələri ilə bəzədilmiş, yüksək keyfiyyətə malik olan bu qablar təxminən min ilədək dənizin dibində qalıb.

Qeyd edək ki, alimlər batmış gəminin qalıqlarını hələ də tapa bilməyiblər.



## İtaliya sahil mühafizə xidməti 2,7 min miqrantı xilas edib

***İtaliya sahil mühafizə xidmətinin həyata keçirdiyi 23 əməliyyat nəticəsində sutka ərzində 2,7 min miqrantın həyatı xilas edilib.***

TASS agentliyinin məlumatına görə, bu barədə xidmətin rəsmi bəyanatında deyilir.

Xilasetmə əməliyyatları zamanı 19 qəzaya uğramış hava ilə doldurulan qayıqdan və 4 yelkənli balıqçı gəmisindən qeyri-hökumət təşkilatlarının iştirakı ilə 15 nəfərin cəsədi aşkarlanıb.

İtaliya sahillərinə doğru dənizlə ilin əvvəlindən 155 min nəfər gəlib. Onların əksəriyyəti Afrika ölkələrinin vətəndaşıdır.

## İş adamı Cəbəllütariq boğazını üzərək keçib

***"Sigma Technologies" şirkətinin sahibi olan 51 yaşlı Dino Sebti Cəbəllütariq boğazını üzərək keçən ilk marakeşli kimi tarixə düşüb. O, bir ilə yaxın müddətdə hazırlıq keçdikdən sonra heç bir xüsusi qurğu olmadan Afrika ilə Avropanı ayıran boğazı 4 saat 22 dəqiqəyə üzərək keçib.***

Təxminən 18 kilometr məsafədə üzən Dino Sebti bildirib ki, bu, onun üçün macəradır. Bu prosesin hər anından həzz aldığını deyən iş adamını həmin müddətdə qayıq müşayiət edib.

*Aygün Əliyeva*



## Fırlanan dəyirmi ada aşkar edilib

***Tədqiqatçılar Argentina bataqlıqlarında aşkar edilən sirli obyekti əvvəlcə "Google Maps"də taparaq, yerin düzgün skanlanmaması nəticəsində yaranan artefakt kimi qəbul ediblər. Lakin sonra məlum olub ki, ada həqiqətən mövcuddur, habelə ideal dərəcədə dəyirmidir və fırlanır.***

"hi-news.ru" saytının xəbərinə görə, tapıntı amerikalı hidravlika mühəndisi Riçard Petroniyə məxsusdur. O, adanı bu il aşkar edib və bu barədə həmkarları Sercio Nespilerm və Pablo Martinesə məlumat verib. Onlar da tapıntı ilə maraqlanıblar və üçü birlikdə sirli yeri aşkar etmək üçün ekspedisiyaya yola düşüblər. Arzu edən hər kəs qeyri-adi adanı elə indi görə bilər. Bunun üçün "Google Maps"ə 34°15'07. 8"S 58°49'47 koordinatlarını daxil etmək kifayətdir.

Ada Argentinada, Parana çayının deltasında yerləşir. Riçard və onun həmkarları birinci dəfə adaya yaxınlaşa bilməyiblər – hədsiz bataqlıq ərazi onlara mane olub. Lakin helikopter vasitəsilə edilən ikinci cəhd uğurlu olub və alimlər qeyri-adi adanı görə biliblər. "Eye" (Göz) adlandırılan adanın diametri 118 metrdir. Məlum olub ki, yerli sakinlər adanın mövcudluğunu çoxdan bilirlər, lakin orada qədim allahların yaşadığını güman edərək adaya yaxınlaşmağa cürət etmirlər.

Yeri gəlmişkən, ufoloqlar hesab edirlər ki, tədqiqat aparmaq lazım deyil. Onlar əmindirlər ki, bu "ada" – kosmik gəmi lyukunun qapağıdır və ya yadplanetlilərin sualtı bazasına gizli giriş yoludur.

## Hind və Sakit okeanları arasında dənizin olduğunu iddia edirlər



***Alimlər Hind və Sakit okeanları arasında - Filippin adaları ərazisində əvvəllər mövcud olmuş Cənubi Asiya dənizini aşkar ediblər.***

"Svopi" saytı xəbər verir ki, dənizin sahəsi 15 milyon kvadratkilometrlik ərazini əhatə edib. Alimlərin fikrincə, Cənubi Asiya dənizi təxminən 50 milyon il əvvəl coğrafi proseslər nəticəsində yoxa çıxıb.

## Su kranlarından neft axıb



***"ria.ru" saytının xəbərinə görə, Rusiyanın şərqindəki Çerski kəndinin sakinləri evlərindəki su kranlarını açdıqda krandan isti su əvəzinə neftin gəldiyini görüblər.***

Kəndin mərkəzi istilik sistemində meydana gələn qəza nəticəsində 3 ton neftin su şəbəkəsinə sızdığı bildirilir. Neftin su şəbəkəsi ilə yanaşı bölgədəki çayları və ətraf əraziləri kirlətdiyi də qeyd edilib.

Su şəbəkəsindəki nefti təmizləməyə çalışan səlahiyyətlilər soyuq su kranlarında hər hansı bir problemin olmadığı deyiblər. Lakin vətəndaşlara isti suyu içmədən əvvəl qaynatmaları barədə xəbərdarlıq edilib.

Faktla bağlı istintaq aparılır.

## KÖPƏK BALIĞININ HÜCUMU FACİƏLİ SONLUQLA BAŞA ÇATIB



***Yeni Kaledoniya arxipelaqındakı çimərliklərdən birində köpək balığının hücumu nəticəsində avstraliyalı sörfinqçi həlak olub. Sentyabrın 7-də ABC televiziya kanalının yaydığı məlumata görə, kaytsörfinqlə məşğul olan kişi idarəetməni itirərək suya düşüb. Yaxınlıqda olan iri köpək balığı ona hücum edərək budundan dişləyib. Yaxınlıqdakı katamaranda olanlar onu sudan çıxarsalar da sörfinçinin həyatını xilas etmək mümkün olmayıb.***

Yerli xilasetmə xidmətinin başçısı Nikolas Reno bildirib ki, onu çox böyük köpək balığı dişləyib, lakin onun hansı növə aid olduğu məlum deyil. Həlak olanın adı da hələlik açıqlanmır. O, təqribən 50 yaşlarında Qərbi Avstraliya sakinidir. Bu, cari ildə köpək balığının Yeni Kaledoniya sahillərində insana hücumu nəticəsində baş verən ikinci belə faciədir.

Yeni Kaledoniya Sakit okeanın cənub-qərbində, Avstraliyadan təqribən 1200 kilometr şərqdə yerləşən adalar qrupudur və Fransanın xüsusi inzibati-ərazi vahidi hesab olunur.

*Vüqar Ağayev*

## QOZBEL BALİNALARIN NƏSLİ KƏSİLMƏK TƏHLÜKƏSİ ARADAN QALXIB

***ABŞ hökumət orqanları qozbel balinaları daha nəsli kəsilməkdə olan canlı növü hesab etmir. Məməlilərin sayını balinaların qorunması üzrə beynəlxalq cəhdlər sayəsində bərpa etmək mümkün olub.***



"rns.online" saytı xəbər verir ki, bu məlumatı ABŞ-ın Okean və Atmosfer Tədqiqatları Milli İdarəsi yayıb. Qozbel balina populyasiyalarının cəmi 14 növü var. ABŞ hökumət orqanları doqquz populyasiyanı yox olmaqda olan heyvanların siyahısından çıxarıb. Onlar Havay, Vest-Hind və Avstraliyada qışlayan balinalardır. Təxminən 11 min qozbel balinanın qışda Havay adaları ətrafında yaşaması populyasiyanın bərpasından xəbər verir. Lakin populyasiyalardan dördü indiyədək təhlükə altında qalır, birinin isə nəsli kəsilmək üzrədir.

1950-ci illərin ortalarında qozbel balinalar, demək olar ki, tamamilə məhv edilib. Məlumatda bildirilir ki, məməlilərin populyasiyasının tədricən bərpası işinə 1966-cı ildə balina ovuna beynəlxalq qadağa qoyulandan sonra başlanılıb.

## DELFİNLƏRİN ÖZ "DİL"İ VAR

***Feodosiya şəhərindəki (Krım) Karadağ təbiət qoruğunun mütəxəssisləri delfinlərin "dil"inin insan dilinə bənzədiyini bildiriblər.***



"Vista News" saytı xəbər verir ki, elm adamları xüsusi sualtı mikrofon vasitəsilə delfinlərin dialoqunu qeydə alıblar. Məməlilərin səsin tezliyini və ucalığını dəyişə bildiyi məlum olub. Alimlər bu xüsusiyyəti söz birləşməsi və ya cümlə kimi dəyərləndiriblər.

Mütəxəssislər delfinlərin dialoqunun insanların danşığını xatırlatdığını söyləyirlər.

## YURA DÖVRÜNƏ AİD DƏNİZ YIRTICISI TAPILIB

***Şotlandiya muzeyinə Yura dövründə yaşamış dəniz yırtıcısının skeleti təqdim olunub.***

"Vistanews" saytına istinadla xəbər verir ki, 1966-cı ildə Skay adasının yaxınlığında tapılmış yırtıcının qalıqları 50 ildən sonra daşlardan təmizlənib və ziyarətçilərin ixtiyarına verilib.

Uzunluğu dörd metrə çatan və yüzlərlə konusabənzər dişləri olan bu yırtıcı 17 milyon il bundan əvvəl yaşamış ixtiozavr ailəsinə mənsubdur. Məhz onlar müasir balinaların və delfinlərin əcdadları sayılır.

Paleontoloqların sözlərinə görə, dəniz yırtıcısının qalıqları yarım əsr süxurların qalın təbəqələrinin arasında qalıb və onun oradan çıxarılması çox vaxt aparıb.



## BALIQ PULCUĞU İLƏ İŞLƏYƏN GENERATOR

***Hindistan fizikləri balıq pulcuqlarından ibarət batareya ilə işləyən generator yaradıblar. Şəffaf, elastik lövhəcik bədən tərpənişi, səs dalğaları və ya külək axınları kimi kiçik hərəkətlərdən enerji toplaya, sonra onları elektrik enerjisinə çevirə bilir.***




"Rambler" saytı xəbər verir ki, balıq pulcuqlarının tərkibində olan kollagen pyezoelektrik materialdır. O, mexaniki təsirə məruz qaldıqda elektrik yükü yaradır. Kəlküttə Universitetinin alimi, tədqiqatın həmmüəllifi Dipankar Mandal deyir ki, balıq pulcuğundan olan batareyalarla işləyən elektrik vasitələri ekoloji cəhətdən ən təmiz cihazlardır. Müasir pyezoelektrik generatorlarının tərkibini isə zəhərli qurğuşun və bismut təşkil edir.

D.Mandal və həmkarı Sucit Kumar balıq emalı bazarında karp balığının pulcuqlarını toplayaraq onlara qızıl elektrodlar bərkidib və üstünü laminatla örtüblər. Bir neçə yüngül əlçalma və dörd elektrod 77 yaşıl və mavi işıq diodunu yandırmağa kifayət edib.

Kumar və Mandal tədqiqatlarının nəticələrini bu yaxınlarda "Applied Physics Letters" jurnalında dərc ediblər. Tədqiqatçılar bu ixtiranın tibbi implantlar, eləcə də digər kiçik gacetlər üçün çox faydalı ola biləcəyinə ümid bəsləyirlər.

## ƏN BÖYÜK RƏQS EDƏN FƏVVARƏ



***Birləşmiş Əmirliklərin Dubay şəhərində dünyanın ən böyük rəqs edən fəvvarəsi açılacaq.***

"RİA Novosti" xəbər verir ki, bu barədə "Meydan Group" İnkişaf Şirkəti bildirib. Hündürlüyü 100 metr, eni 400 metr olan və 30 min kvadratmetr sahəni əhatə edən fəvvarə Dubayın "Meydan One Mall" yeni ticarət kompleksində quraşdırılacaq. Layihənin icrasına 2015-ci ilin avqustunda başlanılıb. Kompleksdə uzunluğu bir kilometr olan dünyanın ən uzun dağ xizək borusu da tikiləcək.

Qeyd edək ki, dünyanın ən böyük və ən hündür musiqili fəvvarəsi də 2009-cu ildə Dubayda istifadəyə verilib. Uzunluğu 275 metr, hündürlüyü 150 metr olan fəvvarə Bürc Xəlifədə yerləşir.

*Tahir Dadaşov*

## YARIZARAFAT, YARIGERÇƏK

**Suyu gur gəldiyi üçün meydan sulayır?**

**Bəxt sarıdan bəxtimin bəxti gətirib. Bəxtimin bəxtinə, bəxtdən heç nə gözləməyən mən düşmüşəm.**

**Dedim mütaliəni xoşlayıram. Demədim ki, yerindən duran mənə dərs versin.**

**Hər gözəldə eyib axtarmaqdansa, hər eybi olanda gözəllik axtarmaq daha yaxşıdır.**

**At belində atdan başqa hamı özünü yaxşı hiss edir.**

**Sosializmdə ətimiz olanda yağımız olmurdu, yağımız olanda isə çörəyimiz. Hamısı eyni vaxtda olanda isə artıq sosializm yox idi.**

**Sosializmdə nə yox idisə, möhtəşəm növbələr həmişə var idi.**

**İpiqırıq adamı kəndir saxlamaz.**

**Adama nə qədər təzyiq etmək lazımdır ki, təzyiqi kəllə-çarxa çıxsın?**

**Cəhətləri bilmədiyi üçün çox adamı fikrindən döndərmək asandır?**

**Ağzı söz tutmayan sirr necə saxlasın?**

**Lazım olduğu üçün kiminsə ağlını oğurlayırlar?**

**Kəndirbazı çıxmaq şərti ilə bütün ipiqırıqlardan başqaları ziyan çəkir.**

**Heç kəsin çörəyinə bais olmaq istəmirəm. Amma bu o demək deyil ki, sən də bir qarın çörək üçün ikigündənbir məni satasan.**

**Bir dünya natamam adam da bir bütöv kişiyə dəyməz.**

**SSRİ-nin vaxtında "işverən" çox olduğu üçün işsiz adam yox idi?**

**Adamın gözünə dik baxa bilmədiyi üçün adama yuxarıdan aşağı baxır?**

**Dünənə kimi "böyük qardaşımız "urus" olubsa, özümə təmiz müsəlman deyə bilərəm?**

**Bütün günahlarımı yuya bilməsəm də, yumağa cəhd göstərmək üçün bir az möhlət istəyirəm.**

**Adam var, bu dünyada təkcə vaxtı var. Onu da Allah verib.**

**Deyirəm bir az gec doğulsaydım, arxamca danışanlar görəsən kimin dalınca danışardılar?**

**Pulun gücünə bax e... Bütün dünyada pulu olanın dediyini deyirlər.**

**Əvvəllər and-aman edirdilər ki, pul əl çirkidir. İndi isə pulu olmayana heç əl də vermirlər.**

**Allaha çox şükür ki, səbrim var. Bir az pulum da olsaydı, səbrimi xərcləməzdim.**

**Zəncir çeynəyən adamın dişləri nədəndir?**

**İşığı Allah versə, yaxşı olar. Bəndənin ümidinə qalanda, hətta evdə arvad da adama gün verəndə, işıq vermir.**

**Adamın başı altına təkcə hörmət xatirinə yastıq qoymurlar.**

**Kiminsə yatmaması üçün o boyda filin o boyda qulağını kəsməyə nə lüzum?**

**Heyf deyil cin atı?! Nə ot istəyir, nə su. Üstəlik nə vaxt istəsən, minə bilirsən.**

**Görəsən həqiqətlə yalanı yaxşı-yaxşı qarışdıranda, həqiqətə oxşar bir şey alınır?**

**Nağıl xoşlayan da ancaq nağıl danışmamalıdır.**

**Riyaziyyatı zəif bildiyi üçün fikrini bir yerə toplaya bilmir?**

**Ya ariflərimiz əvvəlki ariflər deyil, ya da işarələrimiz.**

**Bekarçılıqdan çox adamın ağlına çox şey gəlir?**

**Yazandırsa, öz günahlarını da başqasının ayağına yazmalıdır?**

**Oxumaqdan heç kim kor olmur. Əksinə, mütaliə etməyənlərin çoxu kor kimidir.**

**Ad-sanı özüm qazanmalıyam deyə, atam mənə fərli ad qoymayıb?**

**Savadlı adamlar ağıllı adamlardan daha çox çalışqandırlar. Ən azı ona görə ki, ağlı adama Allah verir, savadı isə insan özü qazanır.**

**Mənim çörəyimi yüz faiz israfçılığı xoşlamayan Allah verir. Yoxsa süfrəmdə artıq nə isə olardı.**

**Mənim kimi yazan yoxdur. Xəttimi görməmisən?**

**Hər şeyi satmaq və nəyəsə satılmaq olmaz.**

**Yaxşı adam hər şeyi yaxşı ölçüb-biçir, pis adam yaxşı biçir.**

**Səviyyəsi olmayan adam hər şeyin səviyyəsini ancaq aşağı sala bilər.**

**Yağla şorun fərqini bilməyən əvvəl-axır qatıqlayır.**

**Ölüm haqdırsa, deməli əvvəl-axır hamı haqq yoluna gəlir.**

**Sevinc yaxşı şeydir. Daha deməyiblər ki, başqasının pis gününə də sevinəsən...**

**Vallah, nə bilirsə, elə başım bilir. Ayaqlarımın bu dünyadan xəbəri yoxdur.**

**Niyə, hətta pulu olmayana da elə gəlir ki, yaxşı adama pul lazım deyil?**

**Yaxşı igidin də anası ağlayan vaxtdan dünyanın göz yaşları qurumur.**

**Qadınları, ən çox sevməyi bacardıqları üçün sevmək lazımdır.**

**Elə təkcə sədaqətinə görə Azərbaycan kişisi azərbaycanlı qadına çox şey borcludur.**

**Keçi də pis deyil. Amma qoç döyüşünə qoç çıxarmaq lazımdır.**

**Öz çəkisini bilirsə, onda niyə özünü mənimlə bir tərəziyə qoymaq istəyir.**

**Əməlinə görə ət tökməyən köklükdən niyə gileylənir?**

**Kişilərin pulu ilə geyindikləri üçün bəzi qadınların donları çox qısadır?**

**Qadınların çoxu yaradıcı adamlardır. Ən azı kişilər üçün problem yaradırlar.**

**Dəhşətə bax. Yüz doğru bir yalana dəymәyir.**

**Əvvəllər elə bilirdim ki, yaxşı adamlar azdır. İndi görürəm ki, Adam azdır.**

**Düşmənlərimiz həmişə olub. Dostlarımız isə... Belə çıxır ki, düşmənlərimiz bizə münasibətdə daha sədaqətlidirlər.**

*Rasif TAHİROV*

## İkinci Dünya Köçəri Oyunlarında Azərbaycan idmançıları 15 medal qazanıblar




***Qırğızıstanın İssık-Kul gölünün sahilindəki Çolpon-Ata şəhərində başa çatan ikinci Dünya Köçəri Oyunlarında Azərbaycan idmançıları 4 qızıl, 4 gümüş, 7 bürünc medal qazanaraq komanda hesabında beşinci yeri tutublar.***

Yarışlarda Qırğızıstan 79 medalla birinci, Türkmənistan 24 medalla ikinci, Qazaxıstan 38 medalla üçüncü, Rusiya isə 27 medalla dördüncü yeri tutub.

Bu böyük idman bayramında dünyanın 62 ölkəsindən 500-dən çox idmançı iştirak edib. Oyunlarda 23 idman növü üzrə yarışlar keçirilib.

Köçəri Oyunları çərçivəsində keçirilən mədəni tədbirlərdə Azərbaycanın Xalq Artisti, opera ifaçısı Fidan Hacıyeva, opera müğənnisi Ələsgər Əliyev və "Muğam trio" qrupu da iştirak edib.

## Kombat döyüş növləri üzrə dünya çempionatında fərqləniblər



***Almaniyanın Bad Kissingen şəhərində kombat döyüş növləri üzrə üçüncü dünya çempionatı keçirilib.***

"Neftçi İdman Klubu"nun dörd idmançısı baş məşqçi Rafət Əsədovun rəhbərliyi altında yarışda ölkəmizi təmsil edib. İdmançılarla yanaşı məşqçi özü də çempionatda fərqlənib. Belə ki, məşqçi Rafət Əsədov K-1 versiyasında Hindistan və Almaniya idmançılarını məğlub edərək fəxri kürsünün yüksək pilləsinə qalxıb. Peşəkar kəmər uğrunda döyüşdə isə Tailand idmançısını məğlub edən R.Əsədov dünya kəmərinə də sahib çıxıb.

Klubun üzvü Samir Salmanov peşəkar döyüşdə italiyalı rəqibini məğlub edərək kəməri belinə taxmağa müvəffəq olub. Kikboksinq yarışlarında Tural Cavadov ikinci, Vüqar İmanov isə üçüncü yerlə kifayətlənib.

## NÖVBƏTİ OLİMPİADANIN TƏŞKİLATÇILARI BU SƏVİYYƏYƏ NAİL OLMAQ ÜÇÜN ÇOX ÇALIŞMALIDILAR

***Bakının ev sahibliyi etdiyi, sentyabrın 2-dən start götürən, sentyabrın 13-də Milli Gimnastika Arenasında təntənəli bağlanış mərasimi keçirilən 42-ci Ümumdünya Şahmat Olimpiadasında 175 ölkədən 181 kişi və 142 qadın komandası mübarizə aparırdı. Bu, iştirakçı ölkələrin sayına görə Olimpiada tarixində rekord göstəricidir. Azərbaycan bu mötəbər yarışda üç kişi və üç qadın komandası ilə təmsil olunurdu.***






On bir turdan ibarət yarışlarda kişilərin mübarizəsində aktivində 20 xal olan ABŞ millisi çempion adını qazandı. Eyni xala malik Ukrayna isə ikinci yeri tutdu. Rusiya millisi isə 17 xalla bürünc medal qazandı. Hesabında 15 xal olan əsas komandamız yarışı 12-ci sırada tamamladı. İkinci yığmamız 14 xalla 26-cı, üçüncü komandamız isə 13 xalla 49-cu pillədə yer aldı.

Qadınların yarışında qalib adını 20 xalla Çin şahmatçıları qazandılar. Hesabında 17 xal olan Polşa ikinci, Ukrayna isə üçüncü pillədə yer aldı. Azərbaycanın əsas komandası yarışı 16 xalla 8-ci pillədə başa vurdu. On üç xal toplayan üçüncü komandamız 30-cu, ikinci yığmamız isə 32-ci oldu.

Xatırladaq ki, Olimpiadada Azərbaycanı kişilərdən və qadınlardan ibarət komandalar (hər biri üç komanda ilə) təmsil edirdi. Kişilərdən ibarət birinci komandaya Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Rauf Məmmədov, Eltac Səfərli və Arkadi Naydiç, ikinci komandaya Vasif Durarbeyli, Namiq Quliyev, Qədir Hüseynov, Nicat Abbasov və Ülvi Bacarani, üçüncü komandaya isə Nail Bəşirli, Məhəmməd Muradlı, Vüqar Əsədli, Pərviz Qasımov və Abdulla Qədimbəyli daxil idi.

Azərbaycanın qadınlardan ibarət birinci komandası Zeynəb Məmmədyarova, Günay Məmmədzadə, Aydan Xodcatova, Gülnar Məmmədova və Nərmin Kazımova ilə təmsil olunurdu. Qadınlardan ibarət ikinci komandamızda Türkan Məmmədyarova, Nərgiz Umudova, Xəyalə Abdulla, Ülviyyə Fətəliyeva və Nərmin Xələfova, üçüncü komandada isə Nərmin Məmmədova, Xanım Balacayeva, Gövhər Beydullayeva, Ayan Allahverdiyeva və Aynur Kətanova yer almışdılar.

FIDE-nin prezidenti Kirsan İlyumjinov 42-ci Ümumdünya Şahmat Olimpiadasının yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə təşəkkürünü bildirərək deyib: "Yarışın təşkilatçıları irimiqyaslı şahmat turnirlərinin təşkilində yeni standart müəyyənləşdirdilər. Növbəti Olimpiadanın təşkilatçıları bu səviyyəyə nail olmaq üçün çox çalışmalıdılar. Biz bu gün möhtəşəm yarışı başa vururuq. Ancaq sabah minlərlə gənc qız və oğlan idmanın bu növü ilə məşğul olmağa başlayacaq və şahmatın incəliklərini öyrənməyə çalışacaqlar. İnanıram ki, biz qonaqpərvərliyi ilə seçilən Azərbaycana yenidən qayıdacağıq".

Şahmatın inkişafına davamlı dəstəyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Kirsan İlyumjinov ölkəmizin mötəbər beynəlxalq yarışlara həmişə yüksək səviyyədə ev sahibliyi etdiyini, idmançıların və qonaqların Azərbaycandan xoş təəssüratlarla ayrıldığını vurğulayıb.

## Yay Paralimpiya Oyunlarında milli komandamız 11 medal qazandı




***Sentyabrın 19-da Braziliyanın Rio-de-Janeyro şəhərindəki "Marakana" stadionunda XV Yay Paralimpiya Oyunlarının bağlanış mərasimi keçirildi.***

XV Yay Paralimpiya Oyunlarında idmanın 22 növü üzrə 528 dəst medal uğrunda yarışlar keçirildi. On gün davam edən yarışlarda ümumi komanda hesabında 1-ci yeri 105 qızıl, 81 gümüş və 57 bürünc medal qazanmış Çin idmançıları tutdu. İkinci yerdə Böyük Britaniya (64 qızıl, 39 gümüş, 44 bürünc), üçüncü yerdə isə Ukrayna qərarlaşdı (41 qızıl, 37 gümüş, 39 bürünc).

Azərbaycan millisi yarışlarda 1 qızıl, 8 gümüş və 2 bürünc olmaqla ümumilikdə 11 medal qazandı.

Paralimpiya Oyunlarında 170-dək ölkədən 4000-dən çox idmançı iştirak etdi. Onlardan yalnız Azərbaycan da daxil olmaqla 82 ölkənin idmançıları mükafatçılar sırasına düşə bildi.

Paralimpiya yığmamız medalların ümumi sayına görə iştirakçı ölkələr arasında 33-cü, Avropa ölkələri arasında 16-cı, müsəlman ölkələri sırasında 6-cı, MDB ölkələri arasında isə 3-cü yerdə qərarlaşdı.

İki idmançımız "Rio-2016"da yeni rekordlara imza atdı. Belə ki, F-12 kateqoriyasında İradə Əliyeva nizə atma yarışında (42.58 ) Paralimpiya rekordunu, Yelena Çebanu isə 100 metr məsafəyə qaçışda (11.71) Avropa rekordunu yenilədi.

Qeyd edək ki, idmançılarımız 20 il ərzində, 6 Paralimpiya Oyunlarında 9 qızıl, 18 gümüş, 11 bürünc olmaqla, 38 medal əldə edib. "Rio-2016"da Ramil Qasımovun qızıl medal əldə etməsi ilə Azərbaycanın Paralimpiya tarixində yeni bir səhifə açıldı. Belə ki, Paralimpiya çempionlarımızın sayı 7-ə yüksəldi. Onlardan iki nəfər ikiqat Paralimpiya çempionu və üçqat paralimpiya mükafatçısıdır.

## Ağır atletlərimiz Avropa çempionatında uğurla çıxış ediblər



***Azərbaycan millisinin üzvləri Polşanın Novı Tomısl şəhərində keçirilən 15 və 17 yaşadək qızlar və oğlanlar arasında ağır atletika üzrə Avropa birinciliyində uğurla çıxış ediblər.***

Otuz ölkədən 360 idmançının mübarizə apardığı yarışda komandamızın dörd üzvü fəxri kürsüyə qalxıb. On beş yaşadək oğlanların mübarizəsində Rüstəm Qasımov (50 kq) ümumilikdə 170 kiloqram (77+93) ilə çempionatda üçüncü yeri tutub. Turnirdə 17 yaşadək atletlərin mübarizəsində isə İsmayıl Məmmədov (50 kq) 174 kiloqram (81+93) nəticə ilə Avropa birinciliyinin bürünc medalına sahib çıxıb.

Çempionatda 15 yaşadək oğlanların mübarizəsində Füqan Əliyev (62 kq) toplam 235 kiloqram (105+130) nəticə ilə qızıl medal qazanıb.

Yaşı 17-dək olan qızların yarışında Səbinə Əzimova (48 kq) 152 kiloqramı (65+87) başı üzərinə qaldıraraq karyerasında ikinci dəfə yeniyetmələr arasında Avropa birinciliyinin qalibi olub.

İkinci dəfə Avropa çempionu adını qazandığı üçün çox xoşbəxt olduğunu bildirən Səbinə Əzimova ölkəmizi Avropa birinciliyində layiqincə təmsil etdiyini deyib: "Son zamanlar millimizin adı dopinq qalmaqalında hallanır. Ancaq biz qələbəmizlə sübut etdik ki, ölkəmizdə idmanın bu növü sağlam təməl üzrə inkişaf edir. Azərbaycanın üçrəngli bayrağının Polşada dalğalanması və dövlət himninin səslənməsi çox qürurvericidir. Yarışa ciddi hazırlaşmışdıq və gərgin əməyimiz bəhrəsini verdi. Bizə yaradılan şəraitə görə rəhbərliyə təşəkkürümü bildirirəm".

Avropa birinciliyinin qalibi Füqan Əhmədov mötəbər yarışda mükafatçılar sırasında yer aldığı üçün sevincini bölüşərək deyib: "Bundan sonra da çalışıb ölkəmizi layiqincə təmsil edəcəyəm. Polşada yarış çox gərgin keçdi. Rəqiblərim də çox güclü idmançılar idi. Sevinirəm ki, qızıl medal qazanıb fəxri kürsünün ən yüksək pilləsinə qalxdım".

## Həmvətənimiz qol güləşi üzrə Pekin açıq çempionatının qalibi olub



***Çində müvəqqəti yaşayan Azərbaycan vətəndaşı Samir Məlikov qol güləşi üzrə Pekin açıq çempionatının qalibi olub. O, ağır çəkidə (100 kq+) həm sağ, həm də sol qol ilə bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə çıxıb.***

Çin idmançıları ilə yanaşı, Rusiya, Koreya Respublikası və digər ölkələrin qol güləşçilərinin qatıldığı Pekin açıq çempionatının mükafatçıları Çin açıq çempionatında yarışmaq hüququ qazanıblar.

Samir Məlikov 17 yaşında Bakıda məşqçi Hikmət Xalıqovun rəhbərliyi ilə ağır atletika ilə məşğul olmağa başlayıb və idman ustalığına namizəd olub. İş fəaliyyəti ilə əlaqədar son illər Pekində yaşayan S.Məlikov bir neçə dəfə şəhər açıq çempionatında və digər turnirlərdə gücünü sınayıb. İndi onu qarşıda Çin açıq çempionatı gözləyir.

Azərbaycanın Çindəki səfirliyində keçirilən görüşdə səfir Lətif Qəndilov Samiri qazandığı nailiyyətə görə təbrik edib, ona qarşıdakı yarışlarda uğurlar arzulayıb. Diplomat xaricdə yaşayan soydaşlarımızın müxtəlif tədbirlərdə ölkəmizi belə yüksək səviyyədə təmsil etməsini, Azərbaycan bayrağını yüksəltməsini qürurverici hadisə kimi dəyərləndirib.

***Şahin Cəfərov***







BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2639